24 avqust 2022 №61 (1934) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Mədəniyyət paytaxtımızda yaradıcılıq emalatxanası

### Azərbaycan və Türkiyənin yaradıcı insanları Şuşada bir araya gələcəklər

Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin dəstəyi ilə 26-28 avqust tarixində Azərbaycanın mədəniyyət paytaxtında "Şuşa yaradıcılıq emalatxanası" adlı layihə həyata keçiriləcək.

Layihə Azərbaycanın və Türkiyənin yaradıcı insanlarını bir araya gətirəcək.

Layihə çərçivəsində iki ölkədən müxtəlif istiqamətlər üzrə yaradıcı sahənin təmsilçiləri Şuşanın tarixi-mədəni irsi ilə tanış olacaq, Şuşa qalası, Üzeyir bəyin dağıdılmış evi, "Güllələnmiş abidələr", Bülbülün yenidən qurulmuş ev-muzeyi, Vaqifin məqbərəsi və digər məkanlara baş çəkəcək, Cıdır düzündə olacaqlar.

Layihənin keçirilməsində məqsəd beynəlxalq və yerli ictimaiyyəti tarixi və əzəli torpaqlarımızda həyata keçirilmiş barbarlıq, dağıdılmış abidələrimiz haqqında incəsənət əsərləri vasitəsilə daha ətraflı məlumatlandırmaq, bəstəkar, şair, musiqişünas, misgər, keramika rəssamı, fotoqraf, qiraətçi və digər sahələri təmsil edən 30-a yaxın yaradıcı insanın təqdimatında mədəni irsimiz, zəngin tariximiz və ənənələrimizi daha yaxından tanıtmaqdır.

Layihə iştirakçılarının Şuşa təəssüratından ilhamlanaraq ərsəyə gələcək əsərlər bir müddət sonra Bakıda təşkil ediləcək tədbirdə geniş auditoriyaya təqdim olunacaq.




## Azərbaycan-Özbəkistan əməkdaşlığı uğurla inkişaf edir

Avqustun 23-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti əsnasında iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi məsələləri müzakirə olunub.

Bu ilin iyun ayında Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri zamanı əldə olunmuş razılaşmaların reallaşmasında nəzərəçarpacaq tərəqqi məmnunluqla qeyd edilib.

Avqustun əvvəlində Hökumətlərarası Birgə Komissiyanın növbəti iclasının, Özbəkistan, Azərbaycan və Türkiyənin xarici işlər, ticarət və nəqliyyat nazirlərinin birinci görüşünün səmərəli olduğu vurğulanıb.

Bildirilib ki, cari ildə qarşılıqlı əmtəə dövriyyəsi 70 faiz artıb. Özbəkistan-Azərbaycan investisiya fondunun tezliklə fəaliyyətə başlaması üzrə iş aparılır və mədəni-humanitar mübadilə genişlənir.

Dövlət başçıları praktiki qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə tərəfdar olduqlarını bildiriblər. Bu baxımdan cari ilin payızında Azərbaycan və Özbəkistan Regionlarının Forumunu və iki ölkənin sənaye potensialı sərgisini keçirməyin vacibliyi qeyd edilib.

Telefon söhbəti zamanı regional gündəliyə dair fikir mübadiləsi də aparılıb, o cümlədən Türk Dövlətləri Təşkilatının Səmərqənddə baş tutacaq zirvə görüşlərinin qrafiki və gündəliyi nəzərdən keçirilib.

## Milli dirijorluq məktəbinin formalaşması və inkişafı Niyazinin adı ilə bağlıdır

Avqustun 20-də dünya şöhrətli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Sosialist əməyi qəhrəmanı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı Niyazi Tağızadə-Hacıbəyovun anadan olmasının 110-cu ildönümü tamam oldu.

Bu münasibətlə Mədəniyyət Nazirliyinin nümayəndələri, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri Fəxri xiyabana gələrək maestronun məzarı önünə gül dəstələri qoydular.

səh. 3

## Daşkənddə Azərbaycan kinosu günü

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov Özbəkistan Kinematoqrafiyanın İnkişaf Mərkəzinin direktoru Cavlon Kamalov ilə görüşüb.

Söhbət zamanı 14-18 sentyabr tarixində Özbəkistan paytaxtında keçiriləcək "İpək Yolunun incisi" adlı beynəlxalq festival çərçivəsində "Azərbaycan kinosu günləri"nin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb.

səh. 2

## "Muğam axşamları" layihəsinin yeni mövsümü

Beynəlxalq Muğam Mərkəzinin "Muğam axşamları" layihəsinin 2022-2023-cü il üçün yeni mövsümdə ilk konserti sentyabrın 17-də təqdim olunacaq. BMM-in "Muğam axşamları" layihəsi 2017-ci ildən həyata keçirilir.

səh. 2



20-28 avqust tarixində Çexiyanın paytaxtı Praqada Beynəlxalq Muzeylər Şurasının (ICOM) 26-cı Baş Konfransı keçirilir. Mötəbər tədbirdə ölkəmizi ICOM Azərbaycan Milli Komitəsinin nümayəndə heyəti təmsil edir.

## "Muzeylərin gücü"

### Beynəlxalq Muzeylər Şurasının 26-cı Baş Konfransında ölkəmiz də təmsil olunur

"Muzeylərin gücü" devizi altında keçirilən baş konfransın ilk iş günündə ICOM Azərbaycan Milli Komitəsinin sədri, Azərbaycan Milli Xalça Muzeyinin direktoru Şirin Məlikova milli komitənin üçillik fəaliyyəti barədə hesabatı təqdim edib. O, həmçinin ICOM-un Etnoqrafiya muzeyləri və kolleksiyaları üzrə Beynəlxalq Komitəsinin konfransında "İnklüziv muzey" mövzusunda çıxış edib.

Hesabatda 2019-2021-ci illərdə ICOM Azərbaycan Milli Komitəsinin təşkilatçılığı ilə ölkəmizin muzey həyatında baş verən yeniliklər, keçirilən tədbirlər, beynəlxalq konfranslar, 2020-2021-ci illərdə karantin dövründə muzeylərin onlayn fəaliyyəti, virtual tur layihələrinin hazırlanması, eləcə də 44 günlük Vətən müharibəsi zamanı aparılan təşviqat kampaniyaları haqqında ətraflı məlumat verilib.

davamı səh. 2-də

## Türk tarixinə işıq tutacaq yeni arxeoloji kəşf

Monqolustanın Ötükən bölgəsinin Xanqay silsiləsində türk tarixinə işıq tutacaq yeni bir arxeoloji kəşfə imza atılıb.

Beynəlxalq Türk Akademiyasının Monqolustan Elmlər Akademiyası Arxeologiya İnstitutu ilə birgə elmi-arxeoloji ekspedisiyası Kültegin və Bilgə Xaqanın atası, türk xaqanlığının qurucusu Kutluq İltariş Xaqanın yeni külliyyəsini aşkar edib.

Kompleksdə tapılan yeni daş kitabə üzərində türk və soğd dillərində mətnlər yer alıb.

Beynəlxalq Türk Akademiyasının prezidenti Darxan Kıdıralı tarixi məkana baş çəkərək abidə ilə tanış olub.



## Şəki Türkiyənin Berqama şəhəri ilə qardaşlaşıb



Türkiyənin İzmir vilayəti Berqama Bələdiyyəsinin sədri Hakan Koştunun başçılıq etdiyi nümayəndə heyəti Şəkiyə səfər edib. Səfər çərçivəsində avqustun 23-də Şəki və Berqama şəhərləri arasında dostluq və qardaşlıq haqqında protokol imzalanıb.

Qonaqlar əvvəlcə şəhər rəhbərliyi ilə birlikdə Vərəzət kəndi ərazisindəki naməlum türk əsgərinin məzarını, Şəki şəhərindəki Şəhidlər xiyabanını, Heydər Əliyev Mərkəzinin qarşısında ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Mərkəzlə tanışlıqdan sonra şəhərlər arasında dostluq və qardaşlıq haqqında protokolun imzalanması mərasimi keçirilib.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov və Berqama Bələdiyyəsinin sədri Hakan Koştu qardaşlaşmış şəhərlərin tarixi, mədəniyyəti, iqtisadiyyatı, turizm potensialı barədə qısa təqdimatla çıxış ediblər. Diqqətə çatdırılıb ki, Şəki ilə Berqama arasında əlaqələrin təməli bu ilin mayında qoyulub. Beləliklə, Şəki ilə qardaşlaşmış şəhərlərin sayı artıq 12-yə çatıb. Vurğulanıb ki, imzalanan protokol iki şəhər arasında humanitar, iqtisadi və turizm sahələrində əlaqələrin yaranmasında mühüm rol oynayacaq, eyni zamanda, ölkələrimiz arasında qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə töhfə verəcək.

Mərasimdən sonra yerli ifaçıların konsert proqramı təqdim edilib.

Türkiyəli qonaqlar "Yuxarı Baş" Milli Tarix-Memarlıq Qoruğunun ərazisini gəzib, buradakı tarixi abidələrə baş çəkib, Şərq memarlığının nadir incilərindən hesab olunan Şəki Xan sarayı ilə tanış olublar. Diqqətə çatdırılıb ki, 2019-cu ildə "Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilib.

## Şahmar Ələkbərovun doğum günü ilə bağlı fotosərgi



Avqustun 23-ü tanınmış teatr və kino aktyoru, rejissor, Xalq artisti Şahmar Ələkbərovun doğum günü idi. Bu münasibətlə Azərbaycan Dövlət Film Fondunda fotosərgi təşkil olunub.

Fotosərgidə görkəmli sənətkarın həyat və yaradıcılığını əks etdirən nadir fotolar nümayiş olunur. Sərgi sənətkarın şəxsi arxiv fondunda qorunan fotolar əsasında hazırlanıb.

səh. 5

## İpək Yolu rallisi türk respublikalarının müstəqilliyinin 30 illiyinə həsr olunub



Avqustun 21-də Macarıstanın paytaxtı Budapeştdə Gül Baba türbəsində keçirilən mərasimlə "Dunaydan Orxona İpək Yolu rallisi" avtomobil yürüşünə start verilib. Postsovet məkanında türk respublikalarının müstəqilliyinin 30 illiyinə həsr olunan və təxminən 9100 kilometrlik marşrutu əhatə edən İpək Yolu rallisinə 5 ölkədən 15 avtomobil qatılıb.

səh. 8

"Qonağımız var" layihəsində daha bir görüş

səh. 3



Ölkəmizdəki multikulturalizm və tolerantlıq BMT komitəsində müsbət dəyərləndirilib

səh. 3



"Sənət və sənətkarlar" adlı səyyar tədbir keçirilib

səh. 4

# Qarabağda, Zəngəzurda olduğu kimi, dünya idman arenalarında da bayrağımız həmişə dalğalanacaq

Avqustun 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 9-18 avqust tarixində Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında nəticə əldə etmiş idmançılarla görüşüblər.

"Gülüstan" sarayında keçirilən görüşdə çıxış edən Prezident İlham Əliyev ölkəmizə qalibiyyətlə qayıtmış idmançıları təbrik edib: "Ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmısınız. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm və əldə edilmiş nailiyyətlərlə bağlı sizə öz təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Azərbaycan xalqı sizinlə fəxr edir. Çünki bütün dünyaya bir daha göstərmisiniz ki, Azərbaycan idman ölkəsidir, Azərbaycan idmançıları öz gücü ilə seçilən idmançılardır".

Dövlət başçısı vurğulayıb ki, V İslam Həmrəyliyi Oyunlarında dördüncü yerə layiq görülmək çox böyük nailiyyətdir. Bu nailiyyət onu göstərir ki, bizim əvvəlki uğurlarımız təsadüfi xarakter daşımırdı. Prezident xatırladıb ki, beş il əvvəl Bakıda IV İslam Həmrəyliyi Oyunlarında komandamız birinci olmuşdu: "Bu da təbiidir. Çünki öz doğma divarları həmişə idmançılara əlavə kömək göstərir. Bu dəfə isə çox gərgin mübarizə nəticəsində biz dördüncü yerə layiq görüldük. Onu da bildirməliyəm ki, Oyunlarda ölkələrin ən güclü idmançıları iştirak edirdilər. Bizim idmançılarımız 99 medal qazanaraq, - onlardan 29-u qızıl medaldır, - bir daha ölkəmizin gücünü göstərmişlər".

Prezident Azərbaycan təmsilçilərinin 19 idman növündə medallar qazanmasının da sevindirici hal olduğunu vurğulayıb. Bildirib ki, bu, idmanın bir çox növlərinin ölkəmizdə uğurla inkişaf etdiyini göstərir. Bu, doğrudan da, böyük nailiyyətdir. Çünki bu Oyunlarda 50-dən çox ölkə iştirak edirdi və mübarizə çox gərgin keçib.

Prezident İlham Əliyev daha sonra deyib: "Mən sizinlə Oyunların açılış günündə Konyada görüş əsnasında əmin olduğumu bildirmişdim ki, siz ölkəmizi ləyaqətlə təmsil edəcəksiniz. Şadam ki, belə də oldu. Bir daha nəinki bütün müsəlman aləmi, bütün dünya idmançılarımızın gücünü gördü.



Hər dəfə bayrağımız qaldırılanda, himnimiz səslənəndə hər bir Azərbaycan vətəndaşı haqlı olaraq qürur hissi keçirir və hər qələbə bir daha bizim şöhrətimizi artırır. Mən sizinlə Konyada görüş zamanı demişdim ki, sizin üzərinizə əlavə məsuliyyət düşür. Çünki siz bu Oyunlarda qalib ölkəni təmsil edəcəksiniz. Bu, həm çox qürurverici amildir, eyni zamanda, böyük məsuliyyətdir. Bu məsuliyyəti dərk edərək siz ölkəmizi ləyaqətlə təmsil etmisiniz...".

Dövlət başçısı vurğulayıb ki, V İslam Həmrəyliyi Oyunlarının qardaş ölkədə keçirilməsi də idmançılarımıza ruh yüksəkliyi verib: "Biz açılış mərasimində onun da şahidi olduq ki, Azərbaycan komandası stadiona daxil olanda bizim türk qardaşlarımız necə səmimi və hərarətlə idmançılarımızı qarşılamışlar. Elə bil ki, bizim komandamız Bakıda stadiona çıxıb. Bu, doğrudan da, bir daha bizim xalqlarımızın nə qədər bir-birinə bağlı olduğunu göstərir. Onu göstərir ki, təkcə prezidentlər bir-birinə qardaş deyil, eyni zamanda, xalqlarımız, idmançılarımız qardaşdırlar...

Fürsətdən istifadə edərək Türkiyəni, onun idmançılarını həm Oyunların yüksək səviyyədə təşkil olunması, həm də ki, Oyunlarda birinci yer tutması münasibətilə ürəkdən təbrik etmək istəyirəm.



Onu da bildirməliyəm ki, bu Oyunların keçirilməsi, əlbəttə, böyük təşkilatçılıq məsələlərini də əhatə edir. Xatırlayıram, biz 2017-ci ildə o Oyunları hazırlayarkən bir çox təşkilati məsələləri həll etdik. Hər bir ölkə bu səviyyədə Oyunları keçirə bilməz. Konya Oyunları rəsmən Beşinci İslam Həmrəyliyi Oyunları sayılsa da, əslində, bu Oyunlar cəmi dörd dəfə keçirilib. Birinci Oyunlar Səudiyyə Ərəbistanında, ikinci İndoneziyada, üçüncü Azərbaycanda, dördüncü isə Türkiyədə. Amma rəsmən bu, beşinci Həmrəylik Oyunları sayılır. Yəni, demək istəyirəm ki, Oyunları keçirmək o qədər də asan məsələ deyil və burada Türkiyə tərəfi, əlbəttə, çox yüksək qiymətə layiqdir".

Prezident qeyd edib ki, V İslam Həmrəyliyi Oyunları artıq tarixdir: "İdmançılarımız bu medalları, əminəm ki, qürur hissi ilə daşıyacaqlar. Ancaq indi biz gələcəyə baxmalıyıq, bundan sonra Azərbaycan idmanının inkişafı ilə bağlı hansısa addımlar atılmalıdır".

Son vaxtlar bir neçə federasiyada dəyişikliklər baş verdiyini deyən İlham Əliyev bildirib ki, dəyişikliklər sayəsində hazırda nəticələr də var və olacaq. Əsas odur ki, Azərbaycanın idman ictimaiyyəti belə mütəşəkkil qüvvə kimi bir nöqtəyə vursun: "Mən 1997-ci ildən Milli Olimpiya Komitəsinin prezidentiyəm və bilirəm, hansı ölkələrdə hansı proseslər baş verir. Bir çox hallarda idmana cavabdehlik daşıyan qurumlar arasında birlik yoxdur, əksinə, ziddiyyətlər var. Bizdə isə bu birlik var və bu, hesab edirəm ki, uğurlarımızın əsas şərtlərindən biridir".

Dövlət başçısı vurğulayıb ki, bölgələrimizdə çox böyük istedadlar var, uşaqlar, yeniyetmələr, sadəcə olaraq, onları seçib tapmaq, idmana cəlb etmək lazımdır. İdmanla məşğul olmaq üçün şərait var, bölgələrdə 50-yə yaxın olimpiya idman kompleksi fəaliyyət göstərir: "Yəni, bütün imkanlar var və idman bölmələrinə gələn uşaqları seçib onları yetişdirmək lazımdır, həm güclü idmançı kimi, həm ləyaqətli vətəndaş kimi. Bu da çox vacib məsələdir. Mən çox şadam, çox sevinirəm ki, bizim idmançılarımız, ölkəmizi dünyada ləyaqətlə təmsil edən idmançılar məişətdə də nümunəvi davranışla fərqlənirlər. Bu, çox vacibdir. Həm təvazökarlıq, həm Vətənə bağlılıq, milli dəyərlərə bağlılıq, fiziki güc, mənəvi güc. Çünki fiziki güc, necə deyərlər, mənəvi gücü də gücləndirir".

Qarşıda 2024-cü il Yay Olimpiya Oyunlarına hazırlıq kimi mühüm vəzifə dayandığını deyən İlham Əliyev əmin olduğunu bildirib ki, idmançılarımız bu mötəbər yarışlarda da ölkəmizi ləyaqətlə təmsil edəcəklər: "Bir daha sizi ürəkdən təbrik edirəm – bütün komanda üzvlərini, medal qazanmış idmançıları, medal qazana bilməyən idmançıları. Mən onlara da deyirəm ki, peşman olmasınlar, hələ gələcəkdə bir çox yarışlar var. Sadəcə olaraq, Vətənə sevgi, öz peşəsinə sədaqət, yorulmaz fəaliyyət, hazırlıq lazımdır. Çünki hazırlıq olmadan heç bir nəticə olmur, nə siyasətdə, nə idmanda, nə həyatda. Siz artıq bir daha Azərbaycanın şöhrətini ucaltmısınız və necə ki, bu gün bayrağımız Qarabağda, Zəngəzurda dalğalanır, idman arenalarında da dalğalanır, əminəm ki, əbədi dalğalanacaq".

## Cənubi Qafqazda davamlı sülh üçün addımlar atırıq

Xüsusi nümayəndələrimiz dörd dəfə görüşüblər. Onların missiyası Türkiyə ilə Ermənistan arasında əlaqələri mərhələli şəkildə qurmaqdır. Azərbaycanın Zəfərindən sonra biz Cənubi Qafqazda davamlı sülhün təsis edilməsi üçün addımlar atırıq. Aviasiya reyslərinin başlaması və s. ilə mühüm addımlar atılıb.




Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bu barədə "Haber Global" telekanalına müsahibəsində deyib.

Ermənistanla normallaşma üçün ticarət sahəsində də bəzi addımların atıldığını diqqətə çatdıran Türkiyə XİN rəhbəri qeyd edib ki, bizim həyata keçirdiyimiz bu prosesi Azərbaycan ilə Ermənistan arasındakı prosesdən ayrı düşünmək lazım deyil. Cənubi Qafqazda davamlı sülh, Ermənistan ilə Azərbaycan arasında imzalanacaq hərtərəfli və davamlı sülh anlaşması ilə gerçəkləşə bilər.

Qarabağ Zəfərindən iki il ötməsinə baxmayaraq, Azərbaycan ərazilərində hələ də erməni qanunsuz silahlılarının olduğunu xatırladan Mövlud Çavuşoğlu Azərbaycanın Laçına paralel yol çəkdiyini vurğulayaraq deyib: "Ermənistanla normallaşma istiqamətində səmimiyyətimizi hər kəs görür. Bunları Ermənistan da görsün, bilsin və unutmasın. Bizim Azərbaycandan ayrı məqsədimiz yoxdur".

İşğal dövründə həyata keçirilən dağıntıları xatırladan nazir təəssüflə bildirib ki, ermənilər qanunsuz məskunlaşdıqları Azərbaycan ərazilərini tərk edərkən yenə də hər şeyi yandırır və dağıdırlar. Bu, yolverilməzdir.

## "Muğam axşamları" layihəsinin yeni mövsümü

Beynəlxalq Muğam Mərkəzinin (BMM) "Muğam axşamları" layihəsinin 2022-2023-cü il üçün yeni mövsümdə ilk konserti sentyabrın 17-də təqdim olunacaq.




Konsertdə BMM-in solistləri Rəvanə Qurbanova, Elgiz Əliyev və Səbinə Ərəbli "Humayun" və "Heyratı" muğamlarını ifa edəcəklər. Xanəndələri tarzən Rövşən Qurbanov, Ceyhun Muradov (kamança), Əməkdar artist Təranə Əliyeva (qanun), Amil Mustafayev (nağara), Vasif Yusibli (ud) və Rəfael Əsgərov (balaban) müşayiət edəcəklər.

BMM-in "Muğam axşamları" layihəsi 2017-ci ildən həyata keçirilir. Layihə çərçivəsində tanınmış ifaçılar tərəfindən muğamlar, xalq mahnıları və təsniflər təqdim edilir.

İlin sonuna kimi layihə üzrə konsertlərdə "Rast" , "Şur", "Zabul-segah", "Çahargah", "Bayatı-Şiraz", "Humayun", "Şüştər", "Şahnaz", "Orta Mahur", "Arazbarı", "Osmanlı", "Heydəri", "Bayatı-Qacar", "Mahur hindi", "Qarabağ şikəstəsi", "Xaric segah", "Heyratı", "Mirzəhüseyn segahı", "Kəsmə şikəstə", "Bayatı-kürd", "Ovşarı", "Dəşti", "Qatar", "Rahab" və "Şirvan şikəstəsi" təqdim olunacaq.

## "Muzeylərin gücü"

### Beynəlxalq Muzeylər Şurasının 26-cı Baş Konfransında ölkəmiz də təmsil olunur

əvvəli səh. 1-də

Şirin Məlikova "İnklüziv muzey" mövzusunda çıxışında isə Azərbaycan Milli Xalça Muzeyinin ölkəmizin ilk inklüziv muzeyi kimi zəngin təcrübəsi, bu sahədə tətbiq olunan yeniliklər və reallaşdırılan layihələrdən bəhs edib. Xalça Muzeyinin inklüziv fəaliyyətinin xarici muzey və təşkilatlar tərəfindən yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb.

ICOM Azərbaycan Milli Komitəsi sədrinin çıxışları konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb. Onlar Azərbaycan Milli Xalça Muzeyinin nəfis çap məhsullarını da yüksək qiymətləndiriblər.

Qeyd edək ki, Şirin Məlikovanın ICOM-un Fəlakət risklərinin idarə olunması üzrə Beynəlxalq Komitənin konfransında "Qarabağın timsalında müharibə və hərbi münaqişələr dövründə mədəni-tarixi abidələrin və muzeylərin dağıdılması" mövzusunda çıxışı da nəzərdə tutulub.



Azərbaycan nümayəndə heyətinin üzvləri həmçinin INTERCOM və CIMAM-ın birgə sessiyasına qatılaraq bir sıra ölkələrdən olan mütəxəssislərlə muzey idarəetməsi sahəsində mövcud vəziyyət və problemlər ətrafında fikir mübadiləsi aparacaqlar.

Beynəlxalq Muzeylər Şurasının (ICOM) 26-cı Baş Konfransı avqustun 28-də öz işini yekunlaşdıracaq.

Qeyd edək ki, Beynəlxalq Muzeylər Şurasının Baş Konfransı 1948-ci ildən etibarən hər üç ildən bir keçirilir. ICOM-un ali toplantısı beynəlxalq muzey ictimaiyyətini əhəmiyyətli bir mövzu ətrafında fikir mübadiləsi aparmaq üçün toplayır və beynəlxalq əməkdaşlığın genişləndirilməsi məqsədi daşıyır.

## Özbəkistanda "Azərbaycan kinosu günləri" keçiriləcək

Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) direktoru Samir Abbasov Özbəkistan Kinematoqrafiyanın İnkişaf Mərkəzinin direktoru Cavlon Kamalov ilə görüşüb.

Görüşdə "Özbəkkino" Milli Agentliyi, Kinematoqrafiyanın İnkişaf Mərkəzi ilə AMM arasında birgə əməkdaşlıq, layihələrin reallaşdırılması, Özbəkistanın televiziya kanallarında, telelayihələrdə Azərbaycan incəsənət xadimlərinin çıxışları, habelə Daşkənddə "Azərbaycan kinosu günləri"nin keçirilməsi müzakirə edilib.

Söhbət zamanı 14-18 sentyabr tarixində Özbəkistan paytaxtında keçiriləcək "İpək Yolunun incisi" adlı beynəlxalq festival çərçivəsində "Azərbaycan kinosu günləri"nin təşkili ilə bağlı fikir mübadiləsi aparılıb.

"Azərbaycan kinosu günləri"nin rəsmi açılış mərasimi Daşkənd şəhərindəki Heydər Əliyev adına AMM-də keçiriləcək və eyni zamanda 17 sentyabrda Buxara şəhərində Azərbaycan filmlərinin nümayişi təşkil ediləcək.

Samir Abbasov bu istiqamətdə Azərbaycan Mədəniyyət Nazirliyi ilə müvafiq iş aparıldığını qeyd edərək, Özbəkistanda keçiriləcək beynəlxalq kinofestivalda yeni



Azərbaycan filmlərinin nümayiş etdiriləcəyini, tanınmış kino xadimlərinin, kinematoqrafçıların iştirak edəcəyini bildirib.

## "Azərbaycanda Olimpiya Hərəkatı" mövzusunda fotomüsabiqə




Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin (MOK) 30 illik yubileyinə həsr olunmuş "Azərbaycanda Olimpiya Hərəkatı" mövzusunda fotomüsabiqə keçirilir.

MOK-un Mədəniyyət Nazirliyi ilə birgə təşkil etdiyi fotomüsabiqəyə hər iştirakçı maksimum 10 fotoşəkillə qatıla bilər.

8 avqustda başlayan müsabiqədə iştirak etmək istəyənlər 1 oktyabr tarixinə qədər rəngli və ya ağ-qara formatda şəkilləri serhedsiz_idman@mail.ru elektron ünvanına göndərə bilərlər. Fotoşəkillərin üzərində heç bir ad, simvol, loqo qoyulmasına icazə verilmir. Kompüter və ya digər texnologiya vasitələrinin imkanları ilə hazırlanmış foto işlər qəbul edilmir. Fotolar real idman hadisəsini əks etdirməklə yanaşı, müsabiqə mövzusunun tələblərinə cavab verməlidir.

Müsabiqədə Azərbaycan Respublikası vətəndaşları olan peşəkar və həvəskar fotoqraflar iştirak edə bilərlər. İştirakçılar öz işlərini təşkilat komitəsinə (serhedsiz_idman@mail.ru) göndərdikdən sonra MOK-a yaxınlaşmalı və "İştirakçı anketi"ni dolduraraq təqdim etməlidirlər.

Birinci, ikinci (2 nəfər) və üçüncü (3 nəfər yerləri tutanlara pul mükafatı və diplom veriləcək.

Müsabiqə başa çatdıqdan sonra növbəti ayda müsabiqədə iştirak edən fotoqrafların işlərindən ibarət fotosərgi keçiriləcək.

Əlaqə telefonları: +99412 465-13-12; +99412 465 84 38; +99450 981 41 31

# Milli dirijorluq məktəbinin formalaşması və inkişafı Niyazinin adı ilə bağlıdır

## Maestro doğum günündə məzarı başında yad edildi

Avqustun 20-də dünya şöhrətli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Sosialist əməyi qəhrəmanı, Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı Niyazi Tağızadə-Hacıbəyovun (1912-1984) anadan olmasının 110-cu ildönümü tamam oldu.

Bu münasibətlə Mədəniyyət Nazirliyinin nümayəndələri, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin əməkdaşları, tanınmış mədəniyyət və incəsənət xadimləri Fəxri xiyabana gələrək maestronun məzarı önünə gül dəstələri qoydular.

Mərasimdə çıxış edən Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli maestronun həyat və yaradıcılığından danışdı. Qeyd etdi ki, Niyazi dahi dirijor, bəstəkar və tanınmış ictimai xadim idi: "Hacıbəylilər ocağında dünyaya gəlmək və musiqiçi olmamaq mümkün deyil. Niyazi xalqına çox yaxın insan idi. Dirijor kimi London, Paris, Praqa, Moskva, Budapeşt və başqa şəhərlərdə dövrünün nüfuzlu orkestrlərinə rəhbərlik etmişdi. XX əsrin görkəmli sənətkarı, ictimai xadimləri Niyazinin evində qonaq olublar. O, müxtəlif vaxtlarda ən yüksək fəxri adlara, orden və medallara, mükafatlara layiq görülüb. Tbilisinin fəxri vətəndaşı olub. Bu gün Niyazinin adı dünya şöhrətli dirijorlar və bəstəkarlarla qoşa çəkilir".

Mədəniyyət Nazirliyinin İncəsənət və qeyri-maddi mədəni irs şöbəsi musiqi sektorunun müdiri Vüqar Hümbətov sənətkarın Azərbaycan musiqi mədəniyyətinin inkişafında, dünyada təbliğində xidmətlərindən danışdı. Qeyd etdi ki, Niyazi Azərbaycan bəstəkarlarının bir çox simfonik və musiqili səhnə əsərlərinin, kantata və oratoriyalarının ilk ifaçısı olub. Eyni zamanda bu əsərlərin şərh edilməsində özünəməxsus orijinal ifaçılıq üslubu yaradıb.

Sektor müdiri onu da diqqətə çatdırdı ki, maestro Niyazinin anadan olmasının 110 illik yubileyi respublikanın şəhər və rayonlarında geniş qeyd edilir.

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının bədii rəhbəri və dirijoru, Xalq artisti Ağaverdi Paşayev dedi ki, maestro Niyazi Azərbaycan musiqisində yaranmış yeni əsərlərin ilk bənzərsiz təfsirçisi olub. Bu əsərlərin geniş təbliğində və beynəlxalq aləmdə şöhrət qazanmasında böyük xidmətlər göstərib. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması və inkişafı Niyazinin adı ilə bağlıdır. Onun dirijorluğu ilə ifa edilən milli bəstəkarların bir çox əsəri, o cümlədən Ü.Hacıbəylinin "Koroğlu" operası sovet musiqisinin "qızıl fond"una daxil edilib.





Maestronun Azərbaycan Opera və Balet Teatrının səhnəsində hazırladığı Müslüm Maqomayevin "Nərgiz", Qara Qarayevin "Vətən", Fikrət Əmirovun "Sevil" operaları, eləcə də Q.Qarayevin "Yeddi gözəl" və "İldırımlı yollarla" baletləri böyük uğur qazanıb. 1961-ci ildə Leninqrad (Sankt-Peterburq) Opera və Balet Teatrında Arif Məlikovun "Məhəbbət əfsanəsi" baletinin ilk tamaşasını hazırlayan maestro həmçinin Ankara Opera və Balet Teatrında Pyotr Çaykovskinin "Qaratoxmaq qadın", Cüzeppe Verdinin "Aida" operalarına, İstanbul Opera və Balet Teatrında türk bəstəkarı Ə.Sayqunun "Koroğlu" operasının ilk tamaşasına və "Yunis Əmrə" oratoriyasına da dirijorluq edib.

Sonda maestronun qohumu Sahib Qədimov tədbir iştirakçılarına dərin təşəkkürünü bildirdi.

**S.Fərəcov**

# Azərbaycan-Serbiya diplomatik münasibətlərinin 25-ci ildönümü qeyd olunub

Avqustun 22-də Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və Serbiya Respublikası arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümünə həsr olunan tədbir keçirilib.



Tədbir iki ölkənin dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Xarici işlər nazirinin müavini Xələf Xələfov çıxış edərək ötən 25 ildə Azərbaycan və Serbiya arasında münasibətlərin inkişafından məmnunluğunu vurğulayıb. Bildirib ki, Serbiya Azərbaycanın strateji tərəfdaşlıq münasibətləri haqqında sənəd imzaladığı 12 Avropa ölkəsindən biridir. İki ölkə arasında siyasi, iqtisadi, humanitar, ticarət, infrastruktur sahələrində münasibətlərin yüksələn xətt üzrə inkişaf etdiyini deyən Xələf Xələfov xüsusilə nəqliyyat, enerji sahələrində əməkdaşlıq üçün mühüm potensialın olduğunu ifadə edib. Regionda yeni reallıqların yaranması ilə nəticələnən 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın sülh və quruculuq səylərindən bəhs edən nazir müavini işğaldan azad edilmiş ərazilərdə aparılan işlərdə dost ölkələrin şirkətləri ilə əməkdaşlığın xüsusi təşviq olunduğunu deyib.

Serbiyanın Azərbaycandakı səfiri Draqan Vladisavljeviç ölkələrimiz arasında diplomatik münasibətlərin əsasının 21 avqust 1997-ci il tarixində qoyulmasına baxmayaraq, əlaqələrimizin tarixinin daha böyük olduğunu vurğulayıb. Azərbaycan və Serbiyanı oxşar keçmiş və çağırışların daha da yaxınlaşdırdığını bildirən səfir iki ölkə arasında çoxtərəfli platformalarda səmərəli əməkdaşlığın mövcudluğunu da diqqətə çatdırıb. Diplomat bu xüsusda ötən il Belqradda keçirilən Qoşulmama Hərəkatının 60 illik yubiley tədbirinin təşkilində Azərbaycan və Serbiyanın əməkdaşlığını qeyd edib.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və Serbiya arasında diplomatik münasibətlərin 25 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.

Qeyd edək ki, Serbiya keçmiş Yuqoslaviyanın altı federativ respublikasından biridir. Federasiyanın süqutundan sonra Serbiya və Monteneqro 2006-cı ilədək ittifaq dövləti şəklində mövcud olublar. Serbiya və Monteneqro İttifaqı ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlər 21 avqust 1997-ci ildə qurulub. 2006-cı ildə Serbiya və Monteneqro ayrılıb və hər ikisi müstəqil xarici siyasət yeritməyə başlayıb. 2011-ci ildə Azərbaycanın Serbiyada, Serbiyanın da Azərbaycanda səfirlikləri fəaliyyətə başlayıb.

# Ölkəmizdəki multikulturalizm və tolerantlıq BMT komitəsində müsbət dəyərləndirilib

Xəbər verdiyimiz kimi, 15-16 avqust tarixlərində Cenevrə şəhərində BMT-nin İrqi ayrı-seçkiliyin ləğv edilməsi üzrə Komitəsinin 107-ci sessiyası çərçivəsində "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya üzrə Azərbaycan Respublikası Hökumətinin dövri məruzəsinin təqdimatı keçirilib.



Tədbirdə Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə aidiyyəti dövlət qurumları nümayəndələrindən ibarət heyət iştirak edib.

Nümayəndə heyətində Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Azad Cəfərli də yer alıb.

Konstruktiv və qarşılıqlı anlaşma şəraitində keçən interaktiv dialoq zamanı Azad Cəfərli BMT komitəsinin üzvləri tərəfindən ünvanlanan sualları cavablandırıb.

Komitə üzvləri Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülük dəyərlərinin qorunub saxlanılması istiqamətində həyata keçirilən ardıcıl tədbirləri müsbət dəyərləndiriblər.

Sessiyada Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) fəaliyyəti də təqdir edilib. Mərkəzin mətbuat xidmətindən bildiriblər ki, tədbirdə ölkəmizin çoxmillətli ölkə olduğu diqqətə çatdırılıb.

BBMM-in ölkədə multikultiralizm dəyərlərinin təşviqi, mədəni, dini və linqvistik müxtəlifliyin qorunub saxlanılması sahəsində səmərəli fəaliyyəti barədə məlumat verilib. Komitə üzvləri görülən işləri yüksək qiymətləndiriblər. BBMM-in ölkə daxilində fəaliyyəti, Azərbaycandakı müxtəlif etnik qruplarla bağlı layihələri və digər suallar da nümayəndə heyəti tərəfindən ətraflı cavablandırılıb.

# Laçın yolu – Vətən müharibəsində Qələbənin strateji vektoru

## Postmünaqişə dövrünün yeni mərhələsi başlanır

Məlum olduğu kimi, Vətən müharibəsinin başa çatdığını elan edən 2020-ci ilin 10 noyabr tarixli Bəyanatının müvafiq bəndinə uyğun olaraq, Azərbaycan tərəfi Laçın dəhlizinə alternativ yolun çəkilməsini başa çatdırıb. Bununla bağlı Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi dəhliz və Laçın şəhəri avqustun sonunadək Azərbaycanın tam nəzarətinə keçməlidir.

Avqustun 23-də Bakıda bu mövzuda iki dəyirmi masa keçirilib.

Sosial Tədqiqatlar Mərkəzində təşkil olunan "Laçın və Laçın yolu: Vətən müharibəsində Qələbənin strateji vektoru" mövzusunda dəyirmi masada millət vəkilləri, media və vətəndaş cəmiyyəti nümayəndələri iştirak ediblər.



Tədbirin moderatorluğunu Sosial Tədqiqatlar Mərkəzi İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu edib. O bildirib ki, Laçın dəhlizinə alternativ yolun çəkilməsi istiqamətində Azərbaycan üzərinə düşən bütün addımları atıb, 32 km uzunluğunda yolu öz ərazisində tamamlayıb. Ermənistan isə bu günə qədər məsələ ilə bağlı üzərinə düşən öhdəliyi yerinə yetirməyib. Qeyd edilib ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərdə suverenliyinin tam bərpası uğrunda strategiyanı uğurla həyata keçirir, eyni zamanda bu ərazilərdə infrastruktur layihələri gerçəkləşdirilir. Ermənistanın yeni dəhlizlə bağlı layihənin reallaşmasından kənarda durmaqla, əslində, Qarabağda yaşayan ermənilərin taleyi ilə maraqlanmadığını nümayiş etdirir. Ermənistanın sərgilədiyi mövqe Azərbaycan ərazisində yaşayan ermənilərin talelərini yalnız Azərbaycana bağlaya biləcəklərini göstərir.

Milli Məclisin deputatı Hikmət Məmmədov Laçın yoluna üçtərəfli bəyanatın şərtləri kontekstində diqqət çəkib. Qeyd edib ki, 30 ilə yaxın işğala son qoyulandan sonra Cənubi Qafqazda yeni siyasi reallıq yaranıb. Azərbaycan öz milli gücünün müxtəlif komponentlərini işə salaraq, yumşaq və hərbi gücü paralel tətbiq edərək özünün qüdrətini bir daha göstərir.

Laçında davam edən ekoloji terror və mədəni abidələrə qarşı erməni vandalizmindən bəhs edən STM-in İdarə Heyətinin üzvü, professor Tahirə Allahyarova bu əməllərin insanlıq əleyhinə cinayət kimi beynəlxalq hüquqi qiymətləndirilməsinin önəmini vurğulayıb. Qeyd edib ki, Ermənistanın üzərinə götürdüyü təəhhüdə əsasən, Laçın şəhəri, Zabux və Sus kəndlərinin tamamilə boşaldılması avqust ayının sonuna kimi yekunlaşacaq. Bundan əvvəl 2020-ci ilin dekabrında olduğu kimi, ermənilər tərk etdikləri ərazilərdə apara bilmədikləri nə varsa hamısını yandırmağa, məhv etməyə, dağıtmağa başlayıblar.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov beynəlxalq hüquq kontekstində Laçın rayonunda qanunsuz məskunlaşdırma mövzusuna toxunub. Bildirib ki, 30 ilə yaxın davam etmiş, 44 günlük müharibəylə son qoyulmuş işğal dövründə Ermənistan kütləvi şəkildə beynəlxalq cinayətlər törədib ki, bunlardan biri qanunsuz məskunlaşdırmadır.

***

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində (BMTM) keçirilən "Laçın: Postmünaqişə dövrünün yeni mərhələsi" adlı dəyirmi masada da bu mövzuda müzakirələr aparılıb.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev artıq Laçın şəhərinə nəzarətin Azərbaycana keçdiyini deyib. Bildirib ki, Laçının statusu həmişə danışıqlar zamanı xüsusi yer tuturdu. Minsk qrupu çərçivəsində də Laçın məsələsi ayrı bir maddə kimi müzakirə olunurdu.

BMTM-in İdarə Heyətinin üzvü Esmira Cəfərova Laçının strateji cəhətdən önəmini qeyd edib. Diqqətə çatdırılıb ki, Ermənistan üçtərəfli Bəyanatdakı öhdəlikləri yerinə yetirməkdən yayınır. Ancaq Laçın şəhərində, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşanların əksəriyyəti Yaxın Şərq ölkələrindən gətirilmiş ermənilərdir, onlar bu torpaqları tərk etməlidirlər.

Digər çıxışlarda vurğulanıb ki, Laçın Qarabağın qapısıdır. Bu günlərdə Laçın şəhəri, Zabux və Sus kəndlərinin Azərbaycanın nəzarətinə keçməsi ümumən Cənubi Qafqazda təhlükəsizlik mühitinə böyük töhfə verəcək.

# Dənizkənarı Milli Parkda Qazaxıstan mədəniyyəti ilə bağlı təqdimatlar davam edir

Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikası ilə Qazaxıstan Respublikası arasında diplomatik əlaqələrin 30 illiyi münasibətilə Dənizkənarı Milli Parkda Qazaxıstan mədəniyyəti ilə bağlı silsilə təqdimatlar keçirilir.

Bu çərçivədə Süyunbay adına Almatı Vilayət Filarmoniyası "Kobız sarını" folklor-etnoqrafik ansamblının çıxışı olub.

Bununla əlaqədar Bakı Dəniz Vağzalının yaxınlığında yurta quraşdırılıb. Yurtanın önündə "Kobız sarını" folklor-etnoqrafik ansamblı Qazaxıstan milli musiqisindən nümunələr səsləndirib.

Yurtanın təqdimatı çərçivəsində Bakı sakinlərinə qazaxların adət-ənənələri, tarixi abidələri, musiqisi və turistik məkanları barədə məlumat verilib.

Azərbaycan-Qazaxıstan diplomatik əlaqələrinin 30 illiyi münasibətilə tədbirlər avqustun 31-dək davam edəcək.

# "Qonağımız var" layihəsində daha bir görüş

Avqustun 23-də Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə Mərdəkan Mədəniyyət Sarayında "Qonağımız var" layihəsi çərçivəsində Xalq artisti, Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, dosent Təranə Muradova ilə görüş keçirilib.



Baş idarədən bildirilib ki, tədbirin aparıcısı – Azərbaycan Dövlət Akademik Musiqili Teatrının aktrisası Gültac Əlili iştirakçıları salamlayaraq Xalq artistinin həyat və yaradıcılığı haqqında məlumat verib.

Qeyd olunub ki, bu cür görüşlərin bir məqsədi də gənclərdə estetik zövqün formalaşması, onların incəsənətə marağının təşviq edilməsidir.

Görüşdə Təranə Muradova tamaşaçıları maraqlandıran sualları cavablandırıb, xoreoqrafiya sənəti ilə məşğul olan gənc rəqqaslara tövsiyələrini verib.

Görüşdə Mərdəkan Mədəniyyət Sarayının "Lalələr" və "Azad" rəqs kollektivlərinin və Şüvəlan qəsəbə Mədəniyyət evinin "Səma" rəqs qrupunun gənc rəqqasları iştirak ediblər. Xalq artisti gənc rəqqaslara "Uzundərə", "Yallı" və digər milli rəqs nümunələrindən ustad dərsi keçib.

Sonda Təranə Muradova tədbirin təşkilinə görə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinə və görüşə gələnlərə öz təşəkkürünü bildirib.

№61 (1934)
24 avqust 2022
www.medeniyyet.az

# "Ədəbiyyatımızın ana laylası"




Gəncə Regional Mədəniyyət İdarəsi (RMİ) Gəncə şəhər Mərkəzi Kitabxanasında Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi, "İstiqlal" ordenli Mirvarid Dilbazinin (1912-2001) anadan olmasının 110 illiyinə həsr edilən tədbir keçirilib. Tədbirdə çıxış edənlər Mirvarid Dilbazi yaradıcılığının ideya-sənətkarlıq əziyyətlərindən bəhs ediblər.

***

Ağdaş RMİ M.Ə.Sabir adına Göyçay rayon Mərkəzi Kitabxanasında "Xalq şair Mirvarid Dilbazi" adlı tədbir təşkil edilib. Tədbirdə şairənin kitablarından ibarət sərgi nümayiş etdirilib.

***



Ağstafa RMİ Qazax rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Ədəbiyyatımızın ana laylası" adlı tədbir keçirib. Tədbirdə kitabxananın fəal oxucuları şairənin poeziyasından nümunələr səsləndirib, həvəskar aşıqlar saz havalarını ifa ediblər.

# "Sənət və sənətkarlar"

Masallı RMİ Masallı Rayon Tarix-Diyarşünaslıq Muzeyi, GİKM Masallı nümayəndəliyinin birgə təşkilatçılığı ilə xalq tətbiqi sənətinin inkişafı və gənclərin asudə vaxtlarının səmərəli təşkili ilə bağlı "Sənət və sənətkarlar" adlı səyyar tədbir keçirilib.



Muzeyin direktoru Əntiqə Tağıyeva tədbir iştirakçılarına dulusçuluq və həsirçilik sənəti haqqında məlumat verib.

Tədbir iştirakçıları Ərkivan qəsəbəsinin sakini, dulusçu sənətkar Cəsarət Nuriyevin emalatxanasında olublar. C.Nuriyev bölgənin qədim sənət nümunələrindən olan dulus qablarının hazırlanma texnologiyasından danışıb, bu işin icra prosesini əyani şəkildə göstərib. Gənclər gildən hazırlanmış müxtəlif qablarla yaxından tanış olduqdan sonra özlərini bu sənətdə sınayıblar.

Layihə çərçivəsində gənclər Şatıroba kəndində həsirçi Fəridə Həşimovanın lığ və pizədən həsir, zənbil, papaq, tərəzi və digər əşyaların hazırlanma prosesi ilə tanış olublar. Onlar yer həsiri dəzgahı arxasında həsir də toxuyublar.

Hər iki sənətkar gəncləri bölgənin qədim sənətkarlıq növləri ilə tanış olmağı və bu sənətə yiyələnməyi tövsiyə edib.

# Qədim Şuşadan Bülbül avazı

Azərbaycan professional vokal sənətinin banisi, SSRİ Xalq artisti, professor, ictimai xadim Bülbülün (1897-1961) anadan olmasının 125 illiyi münasibətilə avqustun 18-də sənətkarın Şuşa şəhərindəki ev-muzeyində tədbir təşkil edilib.



"Qədim Şuşadan Bülbül avazı" adlı tədbir sənətkarın Bakıdakı memorial muzeyinin, Şuşadakı ev-muzeyinin və "Aytam" Uşaqların Mədəni Maarifləndirilməsi İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib.

Tədbiri giriş sözü ilə açan Bülbülün Ev-Muzeyinin direktoru Fəxrəddin Hacıbəyli azad Şuşada ilk bərpa olunan və fəaliyyətə başlayan muzeyin tarixi, yenidən qurulan ekspozisiyası barədə danışıb. Tədbirin təşkilatçılarından Murad Həsənxanlı Bülbül irsinin gənclər arasında geniş təbliğ olunması istiqamətində görülən işlərdən bəhs edib.

Beynəlxalq müsabiqələr laureatı Əli Vahidov Bülbülün repertuarından "Ölkəm", "Sənsiz", "Sevgili canan" romanslarını ifa edib.

# Diri Baba türbəsinə pulsuz, Basqal qoruğundakı muzeyə iki manata

Dövlət Turizm Agentliyinin tabeliyində olan "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunda və Qobustan rayonundakı Diri Baba türbəsində aparılan yenidənqurma və bərpa işlərindən sonra istifadəyə verilən turizm infrastrukturu obyektləri və xidmətləri ilə əlaqədar qiymətlər müəyyənləşib.




Agentlikdən verilən xəbərə görə, avqustun 22-dən etibarən "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunda yerləşən hamam-muzeyə giriş yerli turistlər üçün 2, tələbələr üçün 1, xarici vətəndaşlar üçün 5 manat, Qobustandakı Diri Baba türbə kompleksinə giriş yerli ziyarətçilər üçün pulsuz, xarici vətəndaşlar üçün 5 manat olaraq müəyyən edilib. Bundan əlavə, Basqal qoruğunda salınan parkinqdə minik avtomobilləri üçün 1, avtobuslar üçün 2 manat xidmət haqqı nəzərdə tutulub. Diri Baba türbəsi kompleksində yerləşən qurbangahdan istifadə üçün isə 10 manat ödəniş müəyyənləşdirilib. Hər iki abidəyə Azərbaycan Respublikasının vətəndaşı olan əlillərin, müharibə veteranlarının, qazilərin və məktəblilərin, eləcə də 12 yaşınadək xarici turistlərin girişi ödənişsizdir.

Qeyd edək ki, "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğunun iş saatları istirahət və bayram günləri də daxil olmaqla hər gün səhər saat 10:00-dan 20:00-a qədərdir. Diri Baba türbəsi isə istirahət və bayram günləri daxil olmaqla yay mövsümündə hər gün səhər saat 10:00-dan 20:00-dək, qış mövsümündə isə 09:00-dan 18:00-dək ziyarət üçün açıq olacaq.

Xatırladaq ki, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 12-də Qobustan rayonunda Diri Baba türbəsində turizm infrastrukturunun yaradılması ilə bağlı aparılan yenidənqurma işləri, eləcə də İsmayıllı rayonunda "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış olublar.

# Dastana dönən qəhrəmanlar




Bərdədə Vətən müharibəsi şəhidi Xudayar Yusifzadənin xatirəsinə həsr edilən "Dastana dönən şəhid" filminin təqdimatı olub. Tədbirdə çıxış edən Bərdə RMİ-nin rəisi Vəsilə Möhsümova Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə göstərdiyi diqqət və qayğıdan söz açıb. Sonra Günel Əliqızının layihə rəhbərliyi və Şöhrət Eyvazovun ssenarisi əsasında çəkilmiş "Dastana dönən şəhid" filmi nümayiş olunub.

***

Şəki RMİ Balakən rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Heydər Əliyev adına Balakən rayon mədəniyyət və istirahət parkında 18 avqust – Sərhəd Qoşunları Günü ilə əlaqədar "Vətən sərhəddən başlayır" adlı konsert proqramı təşkil edilib. Konsertdə vətənpərvərlik ruhlu mahnılar səsləndirilib.

***

Sumqayıt RMİ-nin Qubadlı rayon nümayəndəliyi tərəfindən Sumqayıt şəhərində yerləşən Q.İlyasov adına Qubadlı şəhər 1 nömrəli tam orta məktəbdə I Qarabağ müharibəsində eyni gündə şəhid olmuş (1993-cü il 18 avqust) dörd polis əməkdaşı – Kamal İsayev, İlqar Bayramov, Ziyəddin Paşayev və




Habil Süleymanovun xatirəsinə həsr olunan tədbir keçirilib. Tədbirdə vətənpərvərlik mövzusunda və şəhidlərimizə həsr olunmuş şeirlər səsləndirilib və muğamlarımızdan parçalar ifa olunub.

***

Ağstafa RMİ Ağstafa rayon Mərkəzi Kitabxanası Sərhəd Qoşunları Gününə həsr olunmuş "Vətən sərhəddən başlayır" adlı kitab sərgisi təşkil edib. Sərgidə hərbi-vətənpərvərlik mövzusunda kitablar nümayiş olunub.

***




Siyəzən rayonunda Vətən müharibəsi şəhidi Röyal Qurbanovun doğum günündə onun xatirəsinə inşa olunan abidə-bulaq kompleksi istifadəyə verilib. Röyal Qurbanov 2001-ci ildə Siyəzənin Beşdam kəndində dünyaya göz açıb. O, Vətən müharibəsinin ilk günlərindən döyüşlərə qatılıb. Cəbrayıl və Füzuli uğrunda şiddətli döyüşlərin iştirakçısı olub. 2020-ci il oktyabrın 5-də Füzuli ərazisində şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

# Bölgələrin mədəni həyatı

## Sərgilər, görüşlər, maarifləndirici tədbirlər



Biləsuvar RMİ Neftçala rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi (GİKM) Neftçala nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Qonağımız var" layihəsi çərçivəsində Pekin Xarici Dillər Universiteti Azərbaycan dili kafedrasının yaradıcısı və müdiri, Çin İctimai Elmlər Akademiyasının əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyevlə gənclərin görüşü olub. Görüş zamanı Aqşin Əliyev məktəb və tələbəlik illəri, Çindəki fəaliyyəti və təcrübələri, Çində Azərbaycan dilinin ixtisas kimi tədrisi, xaricdə təhsil imkanları, diaspor fəaliyyəti haqqında danışıb. O, gənclərə arzularının ardınca getməyi, məqsədləri uğrunda daim mübarizə aparmağı tövsiyə edib.

Salyan rayon Mədəniyyət Mərkəzinin Yenikənd Folklor evində "Şuşa İli" ilə bağlı "Anadır arzulara hər zaman Qarabağ" adlı tədbir keçirilib. Tədbirdə şanlı Zəfərimizə həsr olunan şeirlər söylənilib, mahnılar ifa edilib.

***



Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Erkən nikaha yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib. Çıxış edənlər erkən nikahın səbəbləri, onun yaratdığı fəsadlardan söz açıblar.

***

Kürdəmir RMİ Beyləqan rayon Dünyamalılar kənd Folklor evində "Narkomaniyaya yox deyək!" mövzusunda maarifləndirici tədbir keçirilib. Tədbirdə çıxış edənlər bəşəriyyətin ən böyük bəlalarından olan narkomaniya, psixotrop maddələrin və digər zərərli vərdişlərin fəsadla-



rından, gənc nəslin sağlamlığı üçün yaratdığı təhlükədən, genofondumuza vura biləcəyi zərərdən danışıblar.

***



Sabirabad RMİ Saatlı Rayon Dövlət Rəsm Qalereyasında "Narkomaniya bəşəriyyətin bəlasıdır" adlı tədbir keçirilib. Tədbirdə qalereyanın rəssamlıq dərnəyi üzvlərinin narkomaniyaya həsr etdikləri rəsmlər nümayiş olunub.

***

Gəncə RMİ-nin təşkilatçılığı və Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə Nizami Gəncəvi Məqbərəsində və onun ətrafında iməcilik təşkil edilib. İməcilikdə kompleksin ətrafı, məqbərənin daxili səliqəyə salınıb. Ərazidə mövcud olan yaşıllıqlara aqrotexniki qulluq göstərilib. İməcilikdə Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə RMİ və Kəpəz Rayon Bələdiyyəsinin kollektivləri iştirak ediblər.

Gəncə şəhər MKS "Şuşa İli" ilə əlaqədar "Şuşa Azərbaycan musiqisinin məbədidir" adlı kitab sərgisi təşkil edib.

***



Şəki RMİ-nin rəisi Azər Yusubov Qax rayon Heydər Əliyev Mərkəzinin fəaliyyəti və rayon Tarix-Diyarşünaslıq Muzeyində aparılan əsaslı təmir işləri ilə tanış olub. Daha sonra regional idarənin rayonlar üzrə baş məsləhətçiləri ilə iclas keçirilib. İclasda qarşıda duran vəzifələr və problemlər müzakirə olunub.

***

Uşaqların həyatında və psixoloji inkişafında cizgi filmlərinin böyük rolu olduğu danılmaz faktdır. Övladlarımızın düzgün təlim-tərbiyəsi, sağlam inkişafı, intellektuallığı və savadlığı hər birimiz üçün çox vacibdir. Uşaqların dünyagörüşünün formalaşmasına təsir edən faktorlardan biri də məhz cizgi filmləridir.

Bütün bunlar nəzərə alınaraq, Masallı RMİ-nin Cəlilabad rayonu üzrə nümayəndəliyi və Cəlilabad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Seyrəngahında həftənin şənbə və bazar günləri axşam saatlarında uşaqlar üçün cizgi filmləri nümayiş olunacaq.

***




Xaçmaz RMİ Quba rayon MKS-nin Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə B.Səfəroğlu adına rayon Mədəniyyət Mərkəzində "Xurşidbanu Natəvan – 190" adlı rəsm və kitab sərgisi keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Amerikalı arxeoloqlar cənub bölgəsində tədqiqatlar aparırlar

## Lerik ərazisində 12 küp qəbir aşkar edilib

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun arxeoloji ekspedisiyası Cəlilabad rayonunun Cəfərxanlı kəndi ərazisində yerləşən Neolit və Xalkolit (Eneolit) dövrlərinə aid "Paşatəpə" abidəsində tədqiqat aparır.



İnstitutdan bildirilib ki, arxeoloq Vəfa Mahmudovanın rəhbərliyi ilə həyata keçirilən tədqiqat işləri zamanı aşkar olunan maddi mədəniyyət nümunələri rayonun tarixinə dair yeni elmi fikirlər söyləməyə əsas verir.

İnstitutun baş direktoru, tarix üzrə elmlər doktoru, professor Abbas Seyidov və rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov arxeoloji qazıntı işləri ilə tanış olublar. Tarixi yerlərin turizm üçün imkanları, bu barədə xüsusi kitabın hazırlanması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Cənub-şərq dağlıq ərazilərinin Antik dövr abidələrinin tədqiqi ekspedisiyası" Lerik rayonu ərazisində aparılan arxeoloji tədqiqat işlərini davam etdirir. Boykəndil kəndində Xımbapocə küp qəbirlər məzarlığında aparılan tədqiqatlar nəticəsində ekspedisiya tərəfindən 12 küp qəbir aşkar edilərək öyrənilir. Eramızın I-III əsrlərinə aid olan küp qəbirlər dəniz səviyyəsindən 700 m yüksəklikdə, dağlıq ərazidə yerləşir. Müxtəlifölçülü qəbirlərdə əsasən uşaq dəfnlərinə təsadüf olunur.

Arxeoloji araşdırmalarda yerli mütəxəssislərlə yanaşı, ABŞ-ın Pensilvaniya Universitetinin tədqiqatçıları da iştirak edirlər.

# ATMU tələbələri Türkiyədə istehsalat təcrübəsi keçirlər

Azərbaycan Turizm və Menecment Universitetinin (ATMU) turizm və hotelçilik ixtisası üzrə təhsil alan III kurs tələbələrindən 103 nəfəri cari tədris ilinin istehsalat təcrübəsini Türkiyənin Antalya, İzmir və Bodrum şəhərlərindəki nüfuzlu hotel və turizm müəssisələrində keçirlər.

ATMU-dan bildirilib ki, tələbələr "Patika İnsan Kaynakları Danışmanlık A.Ş" şirkətinin dəstəyi ilə Türkiyədə müvafiq sahələr üzrə peşə vərdişlərinə yiyələnirlər.

ATMU-nun Karyera və kommunikasiya şöbəsinin baş mütəxəssisi Elnurə Əliyeva Antalya şəhərində təcrübə keçən tələbələrin iş və yaşayış şəraiti ilə tanış olub, onların mövcud problemlərini yerində həll edib. Eyni zamanda səfər çərçivəsində müəssisə rəhbərləri ilə işgüzar görüşlər keçirilib. Karyera və kommunikasiya şöbəsinin əməkdaşları istehsalat təcrübəsi prosesində keyfiyyət problem ilə yanaşı, yeni və səmərəli metodların işlənib hazırlanmasını da diqqət mərkəzində saxlayırlar.

ATMU məzunlarının işlə təminatına da diqqət ayırır. Cari tədris ilində universiteti bitirənlərdən 10 nəfər artıq ixtisaslarına uyğun işlə təmin olunub.

# Şahmar Ələkbərovun doğum gününə həsr olunmuş fotosərgi açılıb



Avqustun 23-ü tanınmış teatr və kino aktyoru, rejissor, Xalq artisti Şahmar Ələkbərovun doğum günü idi. Bu münasibətlə Azərbaycan Dövlət Film Fondunda fotosərgi təşkil olunub.

Fotosərgidə görkəmli sənətkarın həyat və yaradıcılığını əks etdirən nadir fotolar nümayiş olunur. Sərgi sənətkarın şəxsi arxiv fondunda qorunan fotolar əsasında hazırlanıb.

Şahmar Zülfüqar oğlu Ələkbərov 1943-cü ildə Gəncədə anadan olub. İndiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Aktyorluq fakültəsini bitirib. Bir müddət ADMİU-da assistent işləyən Şahmar Ələkbərov sonralar aktyor sənətindən dərs deyib.

Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyoru kimi fəaliyyət göstərən sənətkar burada maraqlı obrazlar qalereyası yaradıb.

Görkəmli aktyor kinoya 1967-ci ildən çəkilib, 30-a yaxın filmdə irili-xırdalı rollar ifa edib. Onun kinoda ilk rolu "Dağlarda döyüş" filmindəki Fərrux obrazıdır. Bundan sonra aktyor bir-birinin ardınca "Mən ki gözəl deyildim", "İntizar", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Həyat bizi sınayır", "Skripkanın sərgüzəşti", "Qatır Məmməd", "Arxadan vurulan zərbə" və digər filmlərdə yaddaqalan obrazlar yaradıb.

Şahmar Ələkbərov bacarıq və istedadını rejissorluq sahəsində də sınayıb. Rejissor Gülbəniz Əzimzadə ilə birgə Anarın "Şəhərin yay günləri" pyesi əsasında "İmtahan" bədii televiziya filminə quruluş verib. Bundan sonra müstəqil olaraq "Sahilsiz gecə" bədii televiziya və "Qəzəlxan" bədii filmlərini çəkib. "Yük" bədii filminin ssenarisi də ona məxsusdur.



Görkəmli sənətkar 1992-ci il avqustun 12-də, yaradıcılığının çiçəkləndiyi vaxtda, 49 yaşında vəfat edib.

**Lalə Azəri**

# Bülbülün 100 yaşlı xanımı

## O həm də sənətkarın irsinin təbliğatçısı idi...

Onunla tanışlığım doğum günü ərəfəsinə təsadüf etmişdi. 2012-ci ilin avqust ayı idi. İşə qəbul üçün görüşə gəlmişdim. Çox keçmədən öz sadəliyi, səmimiyyəti, mehriban gülüşü ilə işıq saçan xanım içəri daxil oldu... Ada xanım idi.. Söhbət zamanı ona olan heyranlığımı gizlədə bilmirdim... Zaman keçdikcə, onu tanıdıqca bu heyranlıq daha da artdı...

1922-ci il avqustun 22-də Tiflisdə dünyaya göz açan, ixtisasca hüquqşünas olan Ada xanımın (Adelaida İrza qızı Məmmədova; 1922-2015 – red.), özü dediyi kimi, həyatının "nağıl dövrü" 1938-ci ildə Azərbaycan professional vokal sənətinin banisi Bülbüllə ailə qurduqdan sonra başlamışdı. Uzun illər konsertlərdə, tamaşalarda, qastrollarda Bülbüllə birgə yaşadığı xatirələri bizimlə bölüşərdi. Bülbüldən danışarkən gözlərinə dolan yaşlardan həm yaşadığı xoşbəxt günləri, həm də Bülbül üçün necə darıxdığını hiss edirdik.

Bülbülün Memorial Muzeyi elə onun Bülbülə olan sevgisinin sübutudur. Ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 1976-cı ildə yaradılan muzeyə Ada xanım 1977-ci ilin iyul ayında direktor təyin olunmuşdu. Bununla onun həyatında yeni mərhələ başlamışdı. O, artıq, sadəcə, Bülbülün xanımı, həyat yoldaşı deyil, həm də onun zəngin irsinin tədqiqatçısı, təbliğatçısı idi. Yaşadığı evi, Bülbülün göz bəbəyi kimi qoruyub saxladığı şəxsi əşyalarını muzeyin qurulması üçün təhvil vermişdi.

Ada xanımın Bülbülün Şuşadakı ev-muzeyinin qurulmasında da əvəzsiz xidmətləri olmuşdu. 1983-cü il iyulun 29-da açılışı olan muzey Bakıdakı memorial muzeyin filialı idi. Ada xanım



Şuşadakı muzeyi necə zəhmətlə qurduğunu, ekspozisiyanı Qarabağ xalçaları ilə XX əsrin əvvəllərinə uyğun tərtib etdiyini böyük həvəs və kədərlə xatırlayırdı. İşğaldan sonra dağıdılmış evin, talan olunmuş ekspozisiyanın şəkillərinə kədərlə baxar, bir gün o torpaqlara qayıdacağımıza inanaraq ekspozisiyanı dəqiqliklə bizə göstərər, tövsiyələr verərdi.

Ada xanım Şuşanın azad olduğunu görə bilməsə də, biz onun bütün tövsiyələrinə əməl etdik. Bülbülün Şuşadakı ev-muzeyi çox hörmətli Polad Bülbüloğlu tərəfindən bərpa olunduqdan sonra muzeyin ekspozisiyasının qurulmasında Ada xanımın arzuladığı kimi böyük sevgi ilə iştirak etdik.

Əminəm ki, artıq dahi Bülbülün və Ada xanımın ruhları şaddır. Bu gün artıq onların ruhları Bülbülün doğulduğu evin həyətində, Şuşanın tarix dolu küçələrində, Cıdır düzündə gəzir...

**Fərqanə Cabbarova**
**Bülbülün Memorial Muzeyinin direktoru**

# Doğma evim Gənc Tamaşaçılar Teatrıdır

## "Mənə elə gəldi ki, bir də bu teatrın pilləkənlərini qalxmasam, dünyam alt-üst olar..."



Onun söhbət əsnasında dediyi "Məncə, başqa sahədə ola bilməzdim. Mümkün deyildi. Həm sənət adamları olaraq bizə verilən ömrü özümüz üçün yaşamırıq. Özümüzdən sonra xatırlanmağımız, daha uzun "yaşamağımız" üçün keçiririk" sözləri qeyri-ixtiyari məni diksindirdi. Məhz bu zaman anladım ki, teatr, yaradıcılıq, sənət bütün mənalarda ömürlük asılılıqdır və ona aludə olanı heç vaxt azad buraxmır...

Həmsöhbətim Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının quruluşçu rejissoru, Əməkdar artist, çoxumuzun aktyor kimi tanıdığı Nicat Kazımovdur. Nahamar həyat və sənət yolları ilə 50-ni, özünün təbirincə desək, inanmayaraq yola salan, ruh yaşı hələ 25 olan dramatik rejissor (özünü belə xarakterizə edir) ilə xeyli dərdləşdik.

*– Gəlin, "sadəlövh" sual ilə başlayaq. Ad gününüzü harada və necə qeyd elədiniz?*

– Evdə qeyd etdim. Düzdü, üç gün istər dərs dediyim ali məktəblərdə tələbələrim, istərsə də teatr və tədbir məşqlərimdə heyət məni səs-küylü təbrik yağışına tutdular. Amma rejissorun, aktyorun ad günü, əslində, səhnədə olur və mən hələ ki bu ad günümü etməmişəm. Bilirsiniz ki, teatrımızın əsas səhnəsi təmirdə idi və inşallah, sentyabrdan yenidən istifadədə olacaq. Yəqin ki, qarşıdakı ayda öz binamıza qayıdacağıq. Teatrın rəhbərliyi ilə məsləhətləşək, ya oktyabr, ya da noyabrda bir tamaşanı benefis kimi oynayacağıq. Bu da yəqin ki, son quruluş verdiyim və həm də aktyor kimi iştirak etdiyim "Qağayı" tamaşası olacaq. Bax o zaman yubileyim oldu deyə bilərik.

*– Maraqlıdır, Akademik Milli Dram Teatrında bir neçə tamaşaya quruluş vermisiniz. Etiraf edək ki, əksər sənət dostlarınızın o teatra düşmək arzusu var. Nə əcəb siz məqamı çatanda məkanı dəyişmədiniz?*

– Mən o teatrı da çox sevirəm. Orada uğurlu tamaşalarım var. Amma mənim doğma evim Gənc Tamaşaçılar Teatrıdır. 19 yaşımda gəlmişəm ora və 31 ildir ki, o səhnə mənim dəyişməz ünvanıma çevrilib.

*– Amma bir neçə il əvvəl əməlli-başlı teatrın tərkini qılmışdız...*

– Hə, haqlısız. Əl-ayağımı çəkmişdim, özümə ofis götürüb yaradıcılıq işlərimi orada görürdüm. Teatra yalnız tamaşam olanda gəlirdim. Üç il belə davam etdi. Qərara aldım ki, artıq ərizəmi yazıb teatrdan çıxmalıyam. Bu emosional qərar ilə tələsik pilləkənləri yuxarı qalxmağa başladım. İnanmazsız, birdən mənə elə gəldi ki, bir də bu teatrın pilləkənlərini qalxmasam, dünyam alt-üst olar. Hələ səhnəsini, məşq zallarını, tamaşaçı dolu salonunu demirəm. O an ayaq saxladım və anladım ki, mən bu teatrsız natamam bədən kimiyəm və bu məkan mənim dəyişməz ünvanımdır.

*– Rejissorluğa məhz öz baxış bucağınızı qəbul etdirmək üçün gəldiniz, yoxsa, bu, bir ehtiyac idi?*

– Mənim rejissorluğa gəlməyim məcburiyyətdən oldu. Aktyorluğu daha çox sevirəm, yəqin bilirsiz. Təhsilim də aktyorluqdur. Amma sonradan təkmilləşmə keçdim və artıq neçə ildir quruluşçu rejissor kimi çalışıram. Əslində, tamaşanın balını aktyor çəkir, ləzzətini o alır. Bütün əzab-əziyyəti isə rejissorundur.

*– Bunu aktyor kimi düşünüb deyirsiz, yoxsa rejissor?*

– Rejissor kimi. Tamaşada yaxşı nə varsa aktyorun ayağına yazılır, amma bir balaca qüsur varsa və hətta bu, aktyorun belə günahıdırsa, yenə də hədəf rejissor seçilir. Bütün bunları bilə-bilə, həm də məcburiyyətdən rejissorluğu seçdim. Pantomima Teatrından çıxdıqdan sonra qəribə bir boşluğa düşdüm. Gənc Tamaşaçılar Teatrının o vaxtkı rəhbərliyi məni aktyor kimi işə qaytara bilməyəcəyini dedi. Həmin anda refleks olaraq "İcazə verin, bir tamaşa hazırlayım. Xoşunuz gəlsə, tamaşanı repertuara, məni də truppaya qəbul edin" dedim. Gənclik cəsarətimlə verdiyim sözə xilaf çıxmamaq üçün aldığım vaxtın 5-ci günü tamaşanı təhvil verdim.

*– Aktyorlar da deyir ki, tamaşanın uğuru rejissorun, qüsuru aktyorun ayağına yazılır.*

– Bizim işimiz bir-birindən asılıdır. Rejissor aktyorlarında "ərimәlidir", itməlidir. Aktyor işini elə görməlidir ki, orada rejissor görünməməlidir. Bilirsiz, aktyorlar bir az eqoist olurlar. Acıqlarına gəlməsin, düşmən olacaqlar mənimlə (gülür). Mən də aktyor olmuşam. Aktyor səhnədə yalnız öz oyununa cavabdehdir. Amma rejissor bütün kompozisiyanı düşünən, bütün məsələlərə cavabdeh şəxsdir. Onun qurduğu sxemi bəzən bir improvizə ilə pozan aktyor vərdişi də var və mən bu mənada onlara eqoist dedim.

*– Hiss olunur, improvizələri sevmirsiz.*

– Qətiyyən, qəbul etmirəm və bunu aktyorlara qadağan edirəm. Çünki sənin improvizən öz oyununa kömək etsə də, başqasının oyununa xələl gətirir. Bu mənada mənə despot rejissor da deyirlər.

*– Zaman-zaman teatr və tamaşaçı münasibətləri də müzakirə olunur və tamaşaçını teatrdan küsdürən səbəblərdən danışılır. Necə düşünürsüz, bəlkə məsələ heç bu qədər mürəkkəb deyil...*

– Tamaşaçı əgər uzaqlaşıbsa, bunu teatr, biz etmişik. Tamaşaçıya keyfiyyətli, maraqlı və tez-tez yaxşıya doğru dəyişən işlər təqdim etməliyik. Əgər teatr mənəvi zövq, qida yeridirsə, mütləq onun tələbatçısı olacaq. Teatr xəyanəti bağışlamır. Sən ona xəyanət edirsənsə, o səni daha betər rəzil edir.

*– Yeri gəlmişkən, sizin tamaşa barədə "bu, Çexov deyil" deyənlər də var. O cümlədən açıq-saçıq səhnələrə görə...*

– Onu deyənlər gedib əsəri bir də oxusunlar və görsünlər ki, mən o tamaşada nə etmişəm. Son illər qoyulan "Qağayı"ların içərisində ən az açıq səhnələri olan tamaşadır bu.

*– Razılaşırsız ki, səhnə hər şeydən öncə estetikanı sevir.*

– Bəli və mən çalışıram ki, bu mizanı daim qoruyum. Səhnədə hər şeyi eləmək olar, amma estetika çərçivəsində.

*– Gərək həm də tamaşaçını buna hazırlayasan. Nədir, bəlkə tamaşaçı buna hələ hazır deyil.*

– Məncə, peşəkar və maraqlı hər nə varsa, tamaşaçı onu qəbul edəcək. Hə, bir də heç də hər kəsin fikri mənim üçün etalon deyil və hər tamaşa da hər tamaşaçı üçün deyil. Tamaşaların afişalarına yaş həddi mütləq qeyd olunmalıdır. Camaat bilsin ki, nəyə baxır. Əslində, yeganə məqam həddi saxlamaq və gözəl təqdimatdır.



*– Ümumiləşdirsək, tamaşaçının bəraəti "Azərbaycan teatrı çağdaş meyillərə açıq deyildir"dədir. Teatrın bəraəti nədir?*

– Bilmirəm, yoxdur, məncə. Mən dramaturgiya zəifdir, müasir deyil fikrini qəbul etmirəm. Zəifdir, dünya dramaturgiyasına, müasir klassikaya müraciət elə. Düzdür, dramaturqlarımız azdır, dramaturgiyamız əsas etibarilə publisistikadır. Siz deyən küskünlüyün bir səbəbi də budur. Hər bir hoqqabazlığa müasirlik damğası vurub səhnəni cılızlaşdırmaq olmaz. Mən heç vaxt yenilik, müasirlik, fərqlilik üçün əsər seçmirəm və bunu qəbul etmirəm.

*– Amma yaradıcı tərcümeyi-halına işləyən və bu şöhrətpərəstliyinə görə bütövlükdə yaradıcı kollektivin işini gözdən salan rejissorlar da var.*

– Mən özümə cavabdehəm. Götürək sonuncu quruluş verdiyim "Qağayı" əsərini. Onu uşaq vaxtı oxumuşdum və ruh halıma uyğun olmadığına görə bir kənara qoymuşdum. Pandemiya vaxtı, onlayn dərslərin birində yenidən bu əsəri oxuyub müzakirə etdim və elə o məqamda da tamaşa qoymaq qərarına gəldim.

*– Deyirsiz hər tamaşa da hər tamaşaçı üçün deyil. Mən də bu fikri qəbul etmirəm. Axı teatr kütləvi sənətdir...*

– Bəzi tamaşalar var ki, onlar kütləvi tamaşaçı üçün deyil. Məsələn, illər əvvəl teatrımızda M.Vişnekin "Qoca kloun tələb olunur"unu hazırladım. Teatrın o vaxtkı rəhbərliyi bəyənmədi. Hərçənd o, sırf festival tamaşası idi və əsərin müəllifi mənə istənilən əsərini hazırlamaq icazəsi verib. Onu da deyim ki, indi hazırlanan o tamaşalardan müəllifin xəbəri olsa, onları məhkəməyə verər (gülür). Mən əsəri festivalların birində müəlliflə müzakirə etdim və ondan heç bir qonorar olmadan əsərlərini səhnələşdirmə icazəsi aldım. Mənə görə, o əsər sənət adamlarının lazımsızlıq faciəsi, yəni dramatik əsərdir və aktyorun, yaradıcı şəxsin sənət ölümünü göstərən tamaşa heç də hər tamaşaçı üçün deyil. Festival, mütəxəssislər üçün tamaşa başqadır, kassa tamaşası başqa.

*– İddialı adam təsiri bağışlayırsız.*

– Yox, sadəcə, sənətdə real həyatından daha uzun "yaşamaq" və yadda qalmaq istəyən səhnə adamıyam.

*– Deməli, siz də qoca kloun olmaqdan qorxursuz.*

– Çox.

*– Çalışdığınız teatrın bir missiyası da var: gənclərin mənəvi-estetik zövqünü formalaşdırmaq. Necə düşünürsüz, teatr tərbiyə yeridir, yoxsa əyləncə?*

– Hər ikisi. Amma tamaşaçını əyləncəyə cəlb edərək müəyyən ideya ətrafında cilalamaq olar. Yoxsa, gəl mən səni öyrədim, desəniz, heç kəs gəlməz. Amma əyləncə içində fikirlərimizi rahatca təlqin etməliyik.

*– Bütün yaş kateqoriyaları üçün tamaşalar hazırlayırsız deyə soruşuram: hansı qrup tamaşaçı ilə işləmək daha çətindir?*

– Uşaq tamaşası daha çətindir. Çünki onu aldatmaq, əldə saxlamaq çətindir.

*– Rejissor və aktyor kimi ən uğurlu tamaşanız və rolunuzdan da danışaq, bəlkə.*

– Tamaşalarımın hamısı mənə əzizdir. Amma hamısının öz rəfini özüm hamıdan yaxşı bilirəm. Necə deyərlər, malı mala qatmıram. Kassa üçün də, festival üçün də qurduğum tamaşaların hər birinin səviyyə və auditoriyasını əvvəldən bilirəm və sevinirəm ki, mənim tamaşalarımda tamaşaçı problemi heç vaxt olmur. Qoy, fikrim kiminsə xoşuna gəlməsin, amma bu, belədir. Allah ustadım Bəxtiyar Xanızadəyə cansağlığı versin. Ondan öyrəndim çox məqamlar var və onların içərisində ən çox sevdiyim yaxşı tamaşaçı olmağı bacarmaqdır. Rejissor ilk növbədə yaxşı tamaşaçı olmalıdır və mən bütün tamaşalarımın son məşqində, sadəcə, tamaşaçı oluram və heyətimlə müzakirə edəndə tamaşaçı kimi fikirlərimi bölüşürəm.

*– Pantomima Teatrı nostalgiyanız yenə qalır?*

– Orda mənim ustadım var və o teatrın hər uğuruna sevinirəm. Amma mənim üçün o teatr bir etap idi və onu bitirib özümə yol seçdim. O teatr mənim üçün doğmadır və gəncliyimin kövrək xatirələrinin yeridir.

*– İki teatrda paralel tamaşalar hazırlayırsız. Milli Dram Teatrı ilə Gənc Tamaşaçılar Teatrını müqayisə edə bilərik?*

– Yox, mən bunu heç vaxt eləmirəm və hər birinin də öz yerinin olduğunu unutmuram. Hər iki truppanın müsbət və mənfi tərəfləri var.

*– Teatrımızda problem aktyor truppaları ilə bağlıdır, yoxsa rejissor nəsli ilə?*

– Heç biri, əsas problem teatra münasibətdədir. Bəzən fəaliyyəti, əzab-əziyyəti olanlar kənara atılır, son rolunu 8-10 il əvvəl oynayanlar, artıq səhnəyə yadırğayanlar baş köşəyə çəkiləndə istər-istəməz bir etiraz yaranır. Amma sənət sevgisi, sənət üçün təmənnasızlıq bizim nəslin ən əsas prinsipidir və yaxşı ki, bu zəncir qırılmır, yeni nəsil də gəlir. Bir də sənət fəxri ad, mükafatlar üçün seçdiyimiz deyil, bu, bizim mənəvi ehtiyacımız, həyat qayəmizdir. Mən bu prinsiplə yaşayıram, truppada da, tələbələrə də, birgə işlədiyim komandaya da bunu izah edirəm. Çünki buna özümü məcbur hiss edirəm. Amma, görün ki, dünən teatra gələn bu gün fəxri ad, mükafat istəyir.

*– Deməli, yeni nəslə yaxşı nümunə olmamısınız.*

– Bilmirəm, bəlkə də. Amma bu məsələdə mizanı, qaydaları pozmaq olmazdı. Dediyiniz pis nümunə məsələsinin də günahı onlardadır.

*– Amma ətrafınızda yaxşı komandanız var və bu mənada artıq imic formalaşdırmısız. Buna necə nail olursuz?*

– İşə doğru və layiqli qiymət verərək. Mən onları özümdən ayırmıram və sərf etdikləri əməyi ən yüksək səviyyədə dəyərləndirirəm.

*– Məqamdır, keçək kütləvi mədəni tədbirlər fəaliyyətinizə. Sizi Şuşada təşkil olunan mədəni-kütləvi aksiyalarda daha aktiv görürük.*

– Azad Şuşa hamımızın arzusu idi və min şükür ki, ona yetdik. Şuşanı işğaldan öncə görməyən adam olsam da, elə bilirdim ki, ora yetməsək olmaz. Yadımdadır, döyüşlərin qızğın günləri idi. Sosial şəbəkə paylaşımında İlqar Fəhminin "Balaca kişilər" şeirini oxudum. Mətn məni tutdu və təcili gedib studiyada onu səsləndirdim. Zəfər günündən sonra da eyni həyəcan ilə nazirliyə zəng vurdum, Şuşada, Qarabağda təşkil olunacaq tədbirlərdə sevə-sevə iştirak etmək istədiyimi dedim. Xoşbəxtəm ki, orada təşkil olunan möhtəşəm tədbirlərin bir qismini quruluşçu rejissor kimi hazırlamışam. Şuşada Xurşidbanu Natəvanın 190 illik yubiley tədbiri də mənə həvalə olunub. Böyük sevgi və diqqətlə bu tədbiri də yaddaqalan etməyə çalışacağıq. Çünki bu tədbirlər böyük bir heyətin zəhmətinin bəhrəsidir. Heydər Əliyev Fonduna təşəkkür edirəm ki, məni və çalışdığım komandanı belə məsuliyyətli və qürurverici işlərə cəlb edir.

Hazırda paralel olaraq ölkəmizdə ilk dəfə reallaşacaq beynəlxalq polo yarışının da bədii hissəsinin məşqlərini edirik. 44 dəqiqəlik şou hazırlayıram.

*– Və son sual. Hər rejissorun xəyalını qurduğu əsəri, aktyorun rolu olur. Arzuladığınız tamaşa üçün gecikməmisiz ki?*

– Mən "Romeo və Cülyetta"nı tamam başqa cür hazırlayardım və buna can atırdım. Əslində, bu əsər mənim tamaşa planımda da vardı. Amma təəssüf, belə alındı. Aktyor kimi isə Roma imperatoru Neronu oynamaq istərdim.

**Söhbətləşdi:**
**Həmidə Nizamiqızı**

№61 (1934)
24 avqust 2022
www.medeniyyet.az

“Şuşalı Milli Qəhrəmanlar”

# “Uzun illər keçib, elə bilirəm qardaşım indi şəhid olub...”

Əslən Şuşadan olan, bu şəhərdə doğulub-böyüyən, həyatının müəyyən mərhələsi Şuşa ilə bağlı olan, burada şəhidlik zirvəsinə qovuşan Milli Qəhrəmanlarımızı tanıtmaqda davam edirik. “Şuşalı Milli Qəhrəmanlar” silsiləsində son olaraq Rizvan Teymurovdan söz açacağıq.



Rizvan Rəhman oğlu Teymurov 1967-ci il aprelin 16-da Şuşa rayonunun Quşçular kəndində anadan olub. 1984-cü ildə doğma kəndində orta məktəbi bitirib, növbəti il ordu sıralarına çağırılıb. Əsgəri xidmətini Rusiyanın Omsk şəhərində başa vurduqdan sonra vətənə qayıdıb.

Rizvan Teymurov 1987-ci ildə iş dalınca Rusiyanın Arxangelsk vilayətinə gedir. Ancaq həmin dövrdən Ermənistanın ölkəmizə qarşı məkrli planları yenidən üzə çıxmağa başlayır və 1990-cı ildə o, yenidən vətənə dönməyə qərar verir. Bir müddət iaşə xidməti sahəsində çalışır. Artıq erməni separatçıları Qarabağda davamlı olaraq təxribatlar törədir, bu elin əzəli sakinlərini didərgin salmaq üçün əllərindən gələni edirdilər.

Həmin dövrdə Şuşa Rayon Daxili İşlər Şöbəsi nəzdində Xüsusi təyinatlı polis dəstəsi yaradılanda Rizvan da tərəddüd etmədən bu dəstəyə yazılır. Qorxubilməz, cəsur döyüşçülərdən ibarət olan bu dəstə Qaradağlı, Sırxavənd, Umudlu, Meşəli, Cəmilli kəndlərində, habelə Xankəndidə erməni terrorçularının zərərsizləşdirilməsində böyük şücaət göstərir. Rizvan döyüşlər zamanı Xocalı-Şuşa avtomobil yolunda, Qarqar çayı üzərindəki Ağa körpüsü yaxınlığında minaya düşür və ağır xəsarətlər alır. Bir müddət müalicə olunduqdan sonra yenidən döyüşə yollanır.

Rizvan 1991-ci il dekabrın 9-u sübh tezdən əməliyyata gedəcəkdi. Gecədən xeyli keçsə də, gözünə yuxu getmirdi. O, qalxıb yoldaşlarının yanına – Kərkicahana getməyi qərara alır. Gecə erməni yaraqlıları qəfil hücuma keçirlər. Lakin cəsur döyüşçülərimizin qarşısında tab gətirə bilməyəcəklərini görüb geri çəkilirlər. Hərbçi yoldaşının sözlərinə görə, Xankəndi-Kərkicahan ətrafında gedən qanlı döyüşdə Rizvan təkbaşına 15-ə yaxın erməni əsgərini məhv edərək qəhrəmancasına şəhadətə yüksəlir.

Şəhidin bacısı Zəminə Babayeva qardaşı ilə bağlı deyib: “1992-ci il fevralın 11-də doğma kəndimiz işğal edildikdən sonra ailəmiz və yaxın qohumlarımızla birgə doğma yurdumuzdan didərgin düşərək Göyçay rayonunun Qaraməryəm kəndində məskunlaşdıq. Artıq hər iki valideynimiz vəfat edib. Uzun illər keçməsinə baxmayaraq, elə bilirəm ki, qardaşım Rizvan indi şəhid olub. O, daim bizim qəlbimizdə yaşayacaq. Mən fəxr edirəm ki, Rizvan kimi cəsur qardaşım olub. Şükürlər olsun ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuz doğma Qarabağımızı və göz bəbəyimiz Şuşanı düşməndən azad etdi. Bu gün qardaşımın ruhu şaddır. Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

Rizvan Teymurov 1991-ci il dekabrın 9-da doğulduğu Quşçular kənd qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli fərmanı ilə Rizvan Teymurov ölümündən sonra “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülüb.

Hazırda Bakının Nizami rayonundakı küçələrdən biri Rizvan Teymurovun adını daşıyır.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Doğma yurdu vəsf etməkdən yorulmayan sənətkar

## Mikayıl Abdullayevin vəfatından 20 il ötdü

”Azərbaycan, doğma vətənim. Mən sənin doğma balan, aşiqin kimi səni, sənin gözəlliyini kətan üzərində vəsf etməkdən yorulmuram, doymuram”.

Bu sözlərin müəllifi milli təsviri sənətimizin görkəmli nümayəndəsi, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Mikayıl Abdullayevdir. Avqustun 21-də Mikayıl Abdullayevin (1921 – 2002) vəfatının 20-ci ildönümü tamam oldu.

O, əlinə fırça aldığı gündən könlünü rənglər aləminə əbədi məhəbbətlə bağladı. Gözlərinin seçdiyi, əllərinin isitdiyi mövzuları kətan üzərində elə ustalıqla işləyirdi ki, fırçasından süzülən hər əsər bir sənət incisinə çevrilirdi. Rəssam təsviri sənətin bütün sahələrində - dəzgah rəngkarlığı, qrafika, teatr dekorasiyası, monumental rəngkarlıq və s. əsərlər yaradıb. Onun əsərlərinə sakit ürəklə baxıb keçmək olmur. Hər bir ştrixi, xətti, rəngi düşündürücüdür...

Bakıda fəhlə ailəsində anadan olan Mikayıl Abdullayev əvvəlcə Əzim Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbində oxuyub, sonra isə V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olub. 1941-ci ildə müharibənin başlanması ilə əlaqədar təhsili yarımçıq qalıb. Müharibədən sonra Moskvada təhsilini davam etdirib, İ.E.Qrabar, V.V.Fakorskaya, S.V.Gerasimov kimi məşhur rəssamlardan dərs alıb. 1947-ci ildə Moskvada keçirilən ümumittifaq bədii sərgisində “Axşam” əsəri ilə iştirak edib. Bu əsər gənc rəssama böyük uğur gətirib. Bunun ardınca sənət nailiyyətləri bir-birini əvəz etməyə başlayıb. “Mingəçevir işıqları” əsəri Moskvada və Budapeştdə (Macarıstan) sərgilənib. İlk fərdi sərgisi də Moskvada keçirilib. O, Bakıya qayıdanda artıq tanınmış rəssam idi.

Müasirlərinin mənəvi aləmini, Azərbaycan təbiətinin gözəlliklərini, qurub-yaradan insanların fədakar əməyini tablolarında əks etdirən Mikayıl Abdullayev milli təsviri sənətimizə bədiilik gətirən rəssamlardan sayılır. O, həyatı da, insanları da gördüyü və duyduğu kimi kətan üzərində əks etdirirdi. Bu səbəbdən də onun bütün əsərlərində ifadəlilik hökm sürüb.

Mikayıl Abdullayevin qəhrəmanları çox olub. Xatirələrində də bu barədə söz açılır, amma onun yaddaşında dərin iz salan böyük bəstəkar Üzeyir Hacıbəyli ilə görüşləridir. Teatr muzeyinin yaradılması ilə əlaqədar ekspozisiyada Üzeyir Hacıbəylinin də portreti olmalı idi. Bu şərəfli işi Mikayıl Abdullayevə tapşırıblar. O vaxta kimi Üzeyir bəy heç bir rəssama razılıq verməyib ki, onun portretini çəksin. Bu xoşbəxtlik Mikayıl Abdullayevə qismət oldu ki, üç dəfə Üzeyir Hacıbəylinin portretini naturadan çəkdi.

Sonralar qələmə aldığı “Unudulmaz obraz” adlı məqaləsində Mikayıl Abdullayev yazırdı: “Üzeyirlə görüşdüyüm, söhbət etdiyim, onun portretlərini yaratdığım günlər həyatımın ən əziz xatirələridir...



Üzeyirin mənə bağışladığı fotonu göz bəbəyi kimi qoruyuram. Onun portretini işlədiyim günlərdə tənəffüsarası müğənni və solistlər tez-tez Üzeyir müəllimin yanına məsləhətə gələrdilər. Fikrət Əmirovu, Niyazini, Soltan Hacıbəyovu, Süleyman Ələsgərovu, Əşrəf Abbasovu, Hacı Xanməmmədovu mən ilk dəfə Üzeyir müəllimin yanında görmüşdüm. Böyük bəstəkarımız öz tələbələrinə ata məhəbbəti ilə yanaşır, diqqətlə dinləyir və onlara qayğıkeşlik göstərirdi. Gənc bəstəkar xanımları – Ağabacını, Ədiləni, Şəfiqəni doğma qızları kimi sevirdi...”.

Fırça ustasının yaradıcılığında xarici ölkə mövzuları da geniş yer tuturdu. Müxtəlif illərdə Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və digər ölkələrə etdiyi səfərlərdən sonra bütün təəssüratlarını kətan üzərinə köçürürdü. Onun bu rəsmlər silsiləsində “Benqal qızları”, “Racəstan qadınları”, “Qoşa əfqan” kimi əsərləri milli və fərdi xarakteristikası, plastikası, kolorit zənginliyi ilə seçilirdi. Əsasən tematik tablolar ustası kimi tanınan Mikayıl Abdullayev portretlər qalereyası da yaradıb. “Ü.Hacıbəyli”, “Səməd Vurğun”, “M.F.Axundzadə”, “M.P.Vaqif”, “İmadəddin Nəsimi” və s. portretlərində rəssam təsvir etdiyi şəxsiyyətlərin daxili aləminə nüfuz etməyi ustalıqla bacarıb.

Mikayıl Abdullayev həm də bir sıra kitablara çəkdiyi illüstrasiyaların müəllifi kimi tanınıb. Azərbaycan rəssamları arasında ikinci bir fırça ustası tapılmaz ki, o öz yaradıcılığı ilə klassik və müasir Azərbaycan ədəbiyyatına möhkəm tellərlə bağlı olsun. Dahi Nizamidən başlayaraq ömrünün sonuna kimi tanıdığı yazıçı və nasirlərə qədər bir çox sənətkarların həm portretlərini yaradıb, həm də onların əsərlərinə illüstrasiyalar çəkib. “Kitabi-Dədə Qorqud” dastanına, Nizaminin “Xəmsə”sinə, Füzulinin “Leyli və Məcnun” poemasına, Mirzə İbrahimovun “Gələcək gün”, Süleyman Rəhimovun “Şamo” romanlarına və s. verdiyi bədii tərtibat, işlədiyi rəsmlər həm əsərlərin mövzusuna uyğunluğu, həm də orijinallığı ilə fərqlənirdi.

1963-cü ildə SSRİ Xalq rəssamı fəxri adına layiq görülən sənətkarın əsərləri Paris, London, Berlin, Praqa, Budapeşt, Belqrad, Sofiya, Varşava, Dehli, Qahirə və başqa şəhərlərdə nümayiş etdirilib. Berlin və Leypsiq şəhərlərində fərdi sərgisi də keçirilib. Mikayıl Abdullayev Avropa rəssamlarının dəyər verdiyi, qiymətləndirdiyi sənətkar idi. 1970-ci ildə rəssam Hindistan mövzusunda silsilə əsərlərinə görə bu ölkənin beynəlxalq Cəvahirləl Nehru mükafatı ilə təltif olunub.

Mikayıl Abdullayev doğma vətənini də qarış-qarış gəzməyi çox sevərdi. Onun cənub bölgəsinə olan səfərindən yadigar qalan əsərləri rəng çalarının əlvanlığı ilə diqqət çəkir. “Masallı süitası”, “Balaca çoban”, “Məktəbli qızlar” və s. tabloları o qədər maraqlı və baxımlı idi ki, onlardan biri – “Sevinc” lövhəsi 1958-ci ildə Brüsseldə keçirilən Ümumdünya sərgisində gümüş medala layiq görülüb.

O dövrdə azərbaycanlı rəssamın yurdumuzun bir bölgəsi ilə əlaqədar işlədiyi əsərin dünya arenasına çıxarılması böyük hadisə idi. Rəssam “Azərbaycan çöllərində”, “Masallı qızları”, “Lənkəranlı qız”, “Çəltik becərənlər”, “Tarlada”, “Abşeronda”, “Xaçmaz qızları”, “Qarabağlı qızlar”, “Astarada çay yığımı” və s. əsərlərində Azərbaycan qadınlarının əməksevərliyini inandırıcı boyalarla əks etdirib. O, hər görüşdən, söhbətdən bir mövzu tapardı. Elə buna görə də onun rəsmləri təbii və canlı idi. Bu əsərlərdə dinamiklik, kolorit diqqət çəkir. 1974-cü ildə sənətkara Azərbaycan SSR-nin Dövlət mükafatı da məhz bu tablolara görə verilib. 1997-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanın ən yüksək dövlət təltifinə – “İstiqlal” ordeninə ilk layiq görülənlərdən biri də Mikayıl Abdullayev olub.

...Hər gün Bakı metrosunun “Nizami” stansiyasından keçən minlərlə insan interyerin tərtibatındakı gözəlliyi heyrətlə seyr edir. Mozaika sənətinin ən gözəl nümunələri kimi bu rəsmlər bizə bir daha onların müəllifini – Mikayıl Abdullayevi minnətdarlıqla xatırlamağımıza vəsilə olur.



# Mimçilərin yaratdığı və “öldürdüyü” İblisi xatırlayarkən...

Artıq avqust ayı da sona çatmaq üzrədir. Teatrlarda yeni mövsümün açılışına sayılı günlər qalıb. Sözsüz ki, sentyabrın 1-dən yenidən qaynar həyatlarına qayıdacaq teatrlar repertuarlarındakı tamaşalarla yanaşı, yeni səhnə nümunələri də hazırlayacaqlar. Bunu yaxın gələcək göstərəcək...

Amma müəyyən cari problemlərlə yola saldığımız mövsümdə də bir neçə teatr tamaşaçıları ilə premyerayla sağollaşmışdı. Bu sıraya Dövlət Pantomima Teatrını da daxil etmək olar. Mimçilərin təqdimatında susaraq üsyan edənləri susa-susa susduran “İblis”ə baxdıq. Ötən mövsümün yaddaqalan premyeralarından biri, yəqin ki, yeni mövsümdə repertuarda yerini möhkəmlədəcək...

Əməkdar artist Bəhruz Vaqifoğlu quruluşçusu olduğu bu tamaşanı Hüseyn Cavidin “İblis” pyesi üzərində hazırlamışdı. Jest və mimlərin “İblis”inin aktyorları Elnur Paşa, Solmaz Bədəlova, Nuridə Musabəyli, Elnur Rzayev, Elxan Şahalıyev, Elmin Qiyaslı, Səbirə Həsənova, Cavad Nuriyev, Jalə Novruz, Səbinə Hacıyeva, İblisin ifaçısı isə Nurlan Rüstəmov idi. Səhnə işinin quruluşçu rəssamı Xəyyam Səmədov, xoreoqrafik həll rəssamı isə Əməkdar artist Səbinə Hacıyeva idi.

Əvvəldən onu deyim ki, teatrın bədii rəhbəri Xalq artisti Bəxtiyar Xanızadənin də dediyi kimi, bu, eksperimentdir və aktyorların özlərini rejissor kimi sınaması üçün əla fürsətdir.

Bu mənada aktyor kimi pantomima səhnəsində bəyənərək izlədiyim, rejissor təlimatlarını canı-dildən, ustalıqla tamaşaçı ilə bölüşən Bəhruz Vaqifoğlunun rejissor debütünü alqışlamaq lazımdır. Bu, öz yerində. Hə, onu da deyim ki, səhnədə tamaşaçı ilə tamaşa olunanlar birləşib klassik “İblis”i, yəni böyük Hüseyn Cavidin cəsarətlə dramaturgiya mövzusu etdiyi “Cümlə xəyanətlərə bais” İblisi axtarsalar da, quruluşçu romantizm cərəyanı ilə postdramatik teatrın sintezində çağdaş izləyicinin performans kimi dəyərləndirdiyi oyunu ayırd etməyə çalışdı. Ən azı bunu hiss etdirməyə cəhd göstərdi.

Tamaşa ümumən bir növ itirə-itirə tapmaq, axtara-axtara itmək kimi hissin hakimiyyətində keçdi. İnanmayacaqsınız, nəticədə biz insanların içimizdə yaratdığı İblislə oyunbazlığına həm heyrətləndik, həm alqışladıq, həm də acıdıq. Bəli, acıdıq. Axı, onu özümüz yaratmışdıq. Daha doğrusu, rejissor belə təlimat vermişdi. Bu kimi bir neçə xaotik, absurd elementlərin səthi keçidini nəzərə almasaq, mimçilərin “İblis”ini son dövrlərin ən baxımlı nümunələrindən saymaq olar.

Keçək müəllifin qoyduğu məsələnin zamanın girdabında sıxılan rejissor təxəyyülündən süzülüb aktyor oyununa gəlişinə. Ondan başlayaq ki, bəşəriyyət özünü dərk edən zamandan İblisin axtarışında olub. Deyilmi? Bu zamanın prizmasından baxsaq, fikir sizə xeyli irreal, bir az da qabağa getsək, köhnə görünə bilər. Amma bəşər övladının mələklə şeytan, Tanrı ilə İblis, xeyirlə şər müqayisəsində mütləq bir seçimi, mütləq bir tapınağı olur. Demək, bir fikir, bir arqument varsa, mütləq onun əksi də var və bu mənada insan daim İblis haqqında daha çox düşünür və ondan qaçmaq üçün son anda Tanrıya sığınır.

Bəhruzun “İblis”i bu mənada biz insanların saxta tanrısevərliyinə, itaətdən müqəddəsliyə dartındığına işarə məqamında da maraqlı idi. Sadə, çəlimsiz, günahsız, hətta dünyadan bixəbər insan. Kimsənin qəlbini qırmayan, heç bir yetimin haqqına girməyən qanadsız mələk. Nə oldu? Biz insanlar nə etdik? Təbii ki, qanadlarını qıra-qıra, yaxşı hisslərini cırmaqlaya-cırmaqlaya ondan İblis yaratdıq. Sonra gah sitayiş etdik, gah üsyan qaldırdıq, gah da imtina etməyə can atdıq. Axırda da cümlə cinayətlərə bais İblisə toplum olaraq uduzduq. Bağrımız çatlasa da, üz-gözümüz ona öyrəşib deyə əlimizi-qolumuzu sallayaraq dizinin dibində oturduq...

Ədəbiyyatda, bədii fikirdə İblis obrazı və onun teatr səhnələrinə keçidi yeni deyil. Cavidin “İblis”i də bir çox rejissorların fərqli quruluş və üslublarında yozumunu tapıb. Təbii ki, hər birində də rejissorlar öz dəstxətlərini qoymağa çalışıblar. Bəhruzun quruluşunu onlardan fərqləndirən cəhət isə ittiham və bəraətin tərəzinin eyni gözündə qoyulmasında, daha doğrusu, İblis ilə insanın mübarizəsində İblisə bəraətdə, bir növ, “İnsanlığın şah əsəri İblisdir, amma bunu inkar edir” yanaşmasında idi və bu mənada onu yetəri qədər cəsarətli hesab etmək olar. Yəni, ey dili-qafil, mələk də, İblis də sənsən və yalnız sənə lazım olanda onların oyuncağı oyununu oynayırsan. Nəticə olaraq rejissor dünən müəllifin yazdığı ilə bu gün özünün gördüyü dünya və dünyalılarla məkansız İblis arasında rabitə yaradır.



Mənə elə gəldi ki, rejissor onu əhatə edən ətraf aləm, rastlaşdığı, bəlkə də dönə-dönə yaşadığı, gördüyü, qarşı-qarşıya gəlib mübarizə apardığı iblislərin, mələk donlu iblislərin hamısını birdəfəlik təhtəlşüurundan silmək üçün qurub bu tamaşanı. Buna nail olubmu? Bax, məhz bu açıq qalan suallardan biridir.

Tamaşa dinamikası ilə baxımlı idi. Müqayisə bəlkə də uğursuz olacaq, amma bəzən mənə elə gəldi ki, rejissor qəsdən tamaşaçısını yaz yağışı ilə aldadıb, doluya “tutdu”. Tamaşanın əvvəlində təqdim olunan xaotik kütləvi səhnələr, xeyirlə şərin ənənəvi qarşılaşmasını ehtiva edən rəmzlərin əvəzlənməsi, xüsusən bu rakursda qadının silah, bəzi məqamlarda yırtıcının pəncəsi arasında parçalanan qurban kimi göstərilməsi müəyyən sosial çağırış kimi də qəbul oluna bilər. Biz bu mənada bəzi məqamlarda “Qadın cazibəsinin qurbanına çevrilməyən kişi yoxdur” təyinindən “Bəşəriyyətin ən böyük məsumiyyəti saf sevgidir və insanlıq ondan çoxdan imtina edib” düşüncəsinə qədər xeyli dolanbaclardan keçib gəlirik. Amma insafən, rejissor bizi azdırmır və mənzilbaşına eyni vəziyyətdə çatırıq: o da yorğun, biz də, o da uduzmuş, biz də, o da təslim, biz də...

Tamaşanın ən yaddaqalan, məncə, ən gözəl məqamı rəngi idi. Qara, qırmızı, bəyaz rəngi və onun doğru təyinatlarla verilməsi. Ümumən boz dünyada mütləq işıq axtarışı və bir gün bütün qaranlıqların günəşin şəfəqlərində aydınlanacağına kiçicik də olsa, yaranan ümid tamaşanın başdan-başa ruhunda var idi və məhz bu ruh rejissorun fərqli quruluş fəndləri ilə özünün uğurlu izharını verirdi.

Qeyd etdiyim kimi, tamaşa çox dinamik, fərqli rəmzlərlə zəngin, rabitəli keçidlər, tapıntı sayılacaq bağlantılarla dolu idi. Bir saatdan artıq müddətdə yalnız iki keçid-fasilə görən tamaşaçı eyni heyətin dayanmadan, özü də yalnız yüksək tempə hesablanmış oyununu gördü. Aktyorlarının bir-birləri ilə təmasını yaxşı bilən, hər birinin tərəf-müqabil kimi potensialına vaqif olan Bəhruz bunu ustalıqla sistemləşdirmişdi.

Aktyor oyunu barədə özüm qəsdən ayrı-ayrılıqda təhlillər aparmadım. Xüsusən Nurlanın İblisini fərqləndirmədim. Çünki onun uğurunda, baxımlı, maraqlı və dolğun alınmasında rejissordan, lap elə onun özündən də çox tərəf-müqabillərinin əməyi var idi. Xüsusən də İblisə fəda kürsüsündə ən uzun müqavimət göstərən qadınların. Mənə elə gəldi ki, “İblis”in qadınları daha harmonik, daha cazibədar və daha dinamik oyuna nail oldular. Hətta bəzi məqamlarda bunun məhz rejissor tərəfindən sistematik olaraq belə qurulduğunu düşündüm. Amma bütün hallarda səhnə əsərinin görünən, dəqiq ifadə etsəm, vizuallıq baxımından tamaşaçının görüş məsafəsinə ən yaxın düzülənləri qadınlar idi və onların tempi bu qeyri-ixtiyari qanunauyğunluğun heç də əbəs olmadığını deyirdi.

Tamaşanın musiqi həlli, keçidlərin xarakterinə uyğun düzülüşü və onların effektivliyi üçün dramaturji tamamlanma da yaxşı düşünülmüşdü. Amma bu sözləri işıq həlli barədə demək çətindir. Xüsusən məhdud məkanda və dekorasiyalar içərisində aktyorlar üzərində qurulan işıqlar onları əvvəldən sonadək kölgələri ilə baş-başa qoydu və bu da ümumi ovqata, sözsüz ki, mənfi təsir göstərdi.

**Həmidə Nizamiqızı**

# Maestro Niyazinin 110 illiyi qeyd edildi

## Dahi musiqiçi haqqında xatirələr Azərbaycan dilində çap olunacaq



Avqustun 20-də dünya şöhrətli dirijor və bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları, beynəlxalq Nehru mükafatı laureatı Niyazinin (Niyazi Zülfüqar oğlu Tağızadə-Hacıbəyov; 1912-1984) anadan olmasının 110 illiyi tamam oldu.

Bu münasibətlə avqustun 18-də Musiqi Mədəniyyəti Dövlət Muzeyinin filialı olan Niyazinin Mənzil-Muzeyində tədbir keçirildi.

Tədbiri Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova açaraq maestronun həyat və sənət yolundan, yaradıcılığının təbliği məqsədilə görülən işlərdən danışdı. Bildirdi ki, Niyazi milli simfonizmin təşəkkülü və inkişafında böyük xidmətlər göstərib, müxtəlif janrlarda qiymətli musiqi əsərləri yaradıb. Yaddaşlara əbədi həkk olunan bu əsərlər dinləyicilər tərəfindən bu gün də böyük məhəbbətlə qarşılanır.

Qeyd edildi ki, Niyazi müxtəlif illərdə Azərbaycan Dövlət Simfonik Orkestrinin, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının, Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri olub. O, respublikamızın hüdudlarından kənarda da sənətkar məharətini göstərib, Leninqrad (Sankt-Peterburq) Opera və Balet Teatrında, Parisin "Qrand-Opera", Londonun "Kovent-Qarden" teatrlarında, Ankara Opera və Balet Teatrında "Məhəbbət əfsanəsi", "Yatmış gözəl", "Daş çiçək", "Yevgeni Onegin", "Qaratoxmaq qadın", "Aida" kimi dünya şöhrətli əsərlərin tamaşasına dirijorluq edib.

Alla Bayramova onu da diqqətə çatdırdı ki, 1987-ci ildə rus dilində nəşr olunan "Maestro Niyazi. Xatirələr, məqalələr, məktublar" kitabından xatirələr bölməsi Musiqi Mədəniyyəti Dövlət Muzeyi tərəfindən ilk dəfə Azərbaycan dilində çapa hazırlanıb. Xatirələri dilimizə Niyazinin Mənzil-Muzeyinin müdiri, Əməkdar mədəniyyət işçisi Rza Bayramov və muzeyin şöbə müdiri Xanımbacı Abdinova çevirib. Kitabda görkəmli ədəbiyyat və incəsənət xadimlərinin maestro Niyazi haqqında xatirələri muzeyin zəngin kolleksiyasındakı fotomateriallarla birlikdə təqdim olunur. Geniş oxucu kütləsi üçün nəzərdə tutulan kitaba Azərbaycan və Türkiyənin bir sıra incəsənət xadimlərinin xatirələri də əlavə olunub.

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov maestro Niyazinin Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərindən danışdı. Qeyd etdi ki, milli musiqimizin təbliğində Niyazinin böyük əməyi olub. Azərbaycan bəstəkarlarının simfonik və musiqili səhnə əsərlərinin, kantata və oratoriyaları onun idarəsində səslənib. Azərbaycan professional dirijorluq məktəbinin formalaşması və inkişafı da məhz Niyazinin adı ilə bağlıdır. O həm də Azərbaycan bəstəkarlarının böyük bir nəslinin yetişib formalaşmasına əvəzsiz töhfələr verib.

Xalq artisti Eldar İsgəndərov, Əməkdar artist Fuad İbrahimov, Əməkdar incəsənət xadimi Məmmədağa Umudov və Cavad Tağızadə çıxış edərək görkəmli sənətkarla bağlı xatirələrini bölüşdülər. Bildirildi ki, Niyazi SSRİ məkanında qadağaların çox çətin vaxtlarında Türkiyədə qastrolda olub. Bu, Azərbaycanla qardaş Türkiyə arasında mədəni körpülərin qurulması baxımından önəmli hadisə idi.

Niyazinin yaxın qohumu Sahib Qədimov çıxış edərək tədbirin təşkilində əməyi olan hər kəsə və iştirakçılara öz təşəkkürünü bildirdi.

Çıxışlardan sonra "Maestro Niyazi. Xatirələr, məqalələr, məktublar" kitabının elektron variantı təqdim edildi. Muzeyin elmi işçiləri Ərizə Abdullayeva, Azər Həşimov və başqaları həmin xatirələrdən bəzi maraqlı fraqmentləri səsləndirdilər. Çıxışlar mövzu üzrə slayd-şou ilə müşayiət edilirdi.

Sonda konsert proqramı təqdim olundu. Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Ülviyyə Hacıbəyova, beynəlxalq və respublika müsabiqələri laureatı, Prezident təqaüdçüsü Toğrul Abdullayev, Xırdalan şəhər onbirillik Musiqi məktəbinin müəllimi Sevinc İbrahimova, respublika və beynəlxalq müsabiqələr laureatı, İstanbul Memar Sinan Universitetinin II kurs magistrantı Aydan Rüstəmzadənin ifalarında Niyazinin "Konsert valsı", "Rast" simfonik muğamından fraqmentlər, "Arzu" romansı, "Xosrov və Şirin", "Rəqs", həmçinin Fikrət Əmirovun "Azərbaycan elləri", Fərhad Bədəlbəylinin "Niyaziyə ithaf" və "Küçələrə su səpmişəm" xalq mahnısı səsləndirildi. Bütün ifalar alqışlarla qarşılandı.

**Savalan Fərəcov**

# Xüsusi qabiliyyət tələb edən ixtisasları necə seçməli?

2022/2023-cü tədris ili üçün respublika ali təhsil müəssisələri üzrə xüsusi qabiliyyət tələb edən ixtisasların (XQTİ) müsabiqəsində (V qrup) yalnız tələb olunan müsabiqə şərtlərini ödəmiş abituriyentlər iştirak edə bilərlər.

Bu barədə məlumat Dövlət İmtahan Mərkəzinin V qrup üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlər üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı kitabçada yer alıb. Bu il V qrup üzrə müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) qəbul imtahanının birinci mərhələsində (cari ilin abituriyentləri üçün buraxılış imtahanında) ümumi balı 60-dan az olmayan abituriyentlər buraxılır.

Qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən XQTİ üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri məqbulla qiymətləndirilən XQTİ-lər üzrə müsabiqə abituriyentin qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılır.

Yekun balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək məqsədilə aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilərdən istifadə edilir: abituriyentin qəbul (cari ilin abituriyentləri üçün buraxılış) imtahanında topladığı ümumi bal; təhsil haqqında sənədə (attestata) tədris dili, ədəbiyyat, xarici dil, riyaziyyat, Azərbaycan tarixi, ümumi tarix, fizika, kimya, biologiya, coğrafiya fənləri üzrə yazılmış yekun qiymətlərin ədədi ortası; riyaziyyat fənni üzrə imtahan balı; Azərbaycan dili və ya rus dili fənni üzrə imtahan balı.

Ümumi balı eyni olan iki və daha çox abituriyenti bir-birindən fərqləndirmək mümkün olmadıqda, onların hamısı müvafiq ixtisasa yerləşdirilir.

# Ənənəviliyə ünvanlanan müasir təxəyyül – eklektika

Eklektika anlayışını sadə dildə izah etməli olsaq, o zaman "nə qaranı, nə də ağı seçmək, həm qaranı, həm də ağı seçmək" kimi qeyd etmək məqsədəuyğun olar. Bu termini bəziləri "təqlidçilik" kimi, bəziləri isə "ilham arayışı" olaraq qiymətləndirir.





Günümüzdə ətrafımıza – müxtəlif tikililərə, insanların geyiminə, saç düzümünə, eləcə də mahnılara, şeirlərə, rəsm əsərlərinə baxdığımız zaman onun təsirini görürük. Daha çox memarlıq sahəsində istifadə edilsə də, incəsənətin bir çox sahəsində özünü göstərir. Memarlıqda bu, əsasən, birdən çox memarlıq elementini ehtiva edən bədii anlayış kimi istifadə olunur. Bəs fəlsəfi izahı necədir? Eklektizm hər bir müxtəlif qurumun, sistemin, quruluşun və ya düzənin önə sürdüyü təkliflərin formalaşması prosesində ən yaxşısını, ən məqbulunu seçərək, tətbiq etmək deməkdir.

Eklektika yunan dilindən ( "eklektikos") "seçmə, seçim edən" kimi tərcümə olunur. Əslində bu, fikrimcə, fəlsəfə, elm və incəsənət arasındakı maqnit qüvvəsinin əsasını təşkil edir və bir növ ümumi bir baxış, vahid bir yanaşma tərzidir. Bu zaman hər hansı bir məsələyə tək bir nöqteyi-nəzərdən deyil, bir çox fərqli prizmadan yanaşılır. Bu gün insan bio-psixo-sosial varlıq olaraq təyin olunduğundan, insan davranışının izahında eklektik bir yanaşma da tətbiq olunmağa başlanıb.

Bu termin incəsənətdə, qeyd etdiyimiz kimi, memarlıq və dekorasiya sahəsində daha çox işlədilsə də, xüsusən postmodernizm dövründə təsviri sənətə nüfuz edərək, rəngkarlıq, heykəltəraşlıq və qrafika sahəsində də populyarlıq qazanmağa başlayıb. Keçmişdən günümüzə sənət üslubları bir-birini izləyərək, meydana gəlib, çağdaş sənətin inkişafına təkan verib. Postmodernizm artıq fərqli kimliyini əldə edərək, incəsənətə yeni anlayışlar, yeni perspektivlər gətirib. Əlbəttə ki, sənətin istənilən sahəsi ilə məşğul olanlar postmodern üslubun nə qədər mürəkkəb, eklektik və plüralistik xüsusiyyətlərə malik olduğundan xəbərdardır. Bu, sənətin konseptual baxımdan strukturunu necə dərk etməli olduğumuza işarə kimi də qəbul oluna bilər. Geniş spektrdə özünü göstərən postmodernizm həm təsadüfi, həm fəlsəfi, həm akademik, həm də sosial diskussiyaya və ya mahiyyətə malik dəyərləri özündə cəmləşdirir.

Fəlsəfə və texnologiyanın incəsənətin formalaşmasına təsiri danılmaz dərəcədə böyükdür. Bu da rəssamlar üçün azadlıq, orijinallıq, rahat bir şərait yaradır.

Bəs yaxşı, "avanqard" bu terminlərin hansına aid edilir? Axı çağdaş və modern sözləri ilə bərabər avanqard terminindən də istifadə edirik. Avanqard müasirliyin estetik ruhunu təyin etmək üçün meydana gəlib. Avanqard rəssam hələ heç kimin kəşf etmədiyini kəşf edir. Loru dildə desək, hələ insan ayağı dəyməyən yerlərə ilk yola çıxan kəs "avanqard" hesab oluna bilər. Modern incəsənətin missiyasını izah edərkən istifadə edəcəyimiz terminlər arasına estetik, eklektik və elitist terminlərini də əlavə etmək lazımdır. Yaradıcılığına bu üç terminin də təsiri olan sənətkarlar içərisində Maleviç, Mondrian, Leger, Kornell, Reinhart və Marsel Düşanın da isimləri vardır. Xüsusilə Marsel Düşanın yaradıcılığındakı anarxist yanaşmaların postmodernist terminlərinin meydana çıxmasında rolu böyükdür. İncəsənətdə populyarlaşan bu hərəkat adi əşyalarla sənəti eklektik cəhətdən bir-birinə birləşdirdi.

Postmodern sənətin keyfiyyətlərini başa düşmək kifayət qədər çətindir. Postmodern incəsənəti təşkil edən eklektik obyektlərin müəyyənləşdirilməsinin çətinliyi həm də bu sənət anlayışının multikultural xarakterindən irəli gəlir. Postmodern sənətdə eklektik obyektlər adi əşyalar kimi seçilir və heç bir bədii qayğı olmadan təsadüfi hazırlanır. Rəssamların əsərləri tədqiq edildikdə, ən çox istifadə edilən eklektik əşyaların daha çox Antik dövr əsərlərindən gəldiyi müşahidə edilir. Postmodern dövründə yaranan sənətin kökünə varmaq demək olar ki, mümkün deyil. Eklektik (sintetik) sənət anlayışı ilə işləyən rəssamlar öz əsərlərində heç bir hökmranlıq etmədən başqa incəsənət və mədəniyyətlərin dəyərlərindən istifadə etmişlər. Modernist rəssamlar, əksinə, Antik dövrdən başlayaraq romantizm, neoklassizm kimi cərəyanlardan təsirlənərək bu təsirləri eklektik bir üsulla (kollaj, montaj) əsərlərində əks etdirmişlər. Əslində bu ikisinin arasındakı ən böyük fərq də ənənə ilə münasibətləridir. Modernizm ənənəvilikdən üz çevirərək onunla özü arasında ziddiyyət yaradıb. Çünki modernizm özü mahiyyətcə inqilabi və mütərəqqi qiymətləndirilməkdə idi. Postmodernizmdə isə vəziyyət tamam fərqlidir. Postmodernist rəssamlar keçmişlə yenidən körpülər quraraq dünya mədəniyyətini və yerli mədəniyyət xüsusiyyətlərini mənimsəmişlər. Postmodernizm gözəlliyin dərkinə müxtəlif məqamlardan baxır və gözəl olmaqdan əlavə, ifadə və məzmunun kontekstini ön plana çıxarmağa istiqamətlənib.

Postmodern sənətdə kompozisiyaların mürəkkəb, anlaşılmaz, müxtəlif mədəni-texniki xüsusiyyətlərin (dekonstruksiya) bir araya gətirilməsi ilə yaradılan strukturlara çevrildiyi, aydın ifadə oluna bilməyən vizual dilləri mövcuddur. Plüralist, eklektik bir anlayışın önə çıxdığı sənət əsərləri və xüsusilə təsviri sənətdə görülən təqlid, ironiya, pastiş, kollaj və montaj kimi üsullar yaradılır və bu əsərlərin yeni, orijinal olduğu israrla müdafiə edilir. Eklektik bir anlayışa uyğun olaraq, postmodern sənətin konseptual baxımdan çaşqınlıq içində olduğu isə böyük bir həqiqətdir...

**Nigar Hətəmova**
**Azərbaycan Dövlət Rəsm Qalereyasının kiçik elmi işçisi**

## Xatirə təqvimi — 24–26 avqust

### Azərbaycan

**24 avqust 1896** – Sənətşünas alim Məhəmməd Ağaoğlu (1896-1949) İrəvan şəhərində anadan olub. 1920-ci ildə Türkiyəyə, oradan Amerikaya mühacirət edib. Miçiqan Universitetində dərs deyib, "İslam incəsənəti" jurnalının redaktoru olub.

**24 avqust 1926** – Əməkdar incəsənət xadimi, bəstəkar, musiqi redaktoru Nazim Ağalar oğlu Əliverdibəyov (1926 – 16.2.1985) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru olub. "Mingəçevir" simfonik poeması, "Cırtdan" nağıl-operası və s. əsərlər, filmlərə musiqi yazıb.

**24 avqust 1990** – Əməkdar mədəniyyət işçisi, aşıq Əkbər Zərbalı oğlu Cəfərov (1933-1990) vəfat edib. Tovuz rayonunun Bozalqanlı kəndində doğulub. "Leyli və Məftun" dastanının, çoxsaylı şeirlərin müəllifidir.

**25 avqust 1910** – Əməkdar incəsənət xadimi, rəssam Bəhram Tofiq oğlu Əfəndiyev (1910-1967) anadan olub. Gəncə Dövlət Dram Teatrında baş rəssam işləyib.

**25 avqust 1915** – Əməkdar memar Tahir Abdulla oğlu Abdullayev (1915-2004) anadan olub.

**25 avqust 1926** – Xalq rəssamı Xalidə Ələkbər qızı Səfərova (1926 – 23.12.2005) Gəncədə anadan olub. Yaradıcılığında natürmort, mənzərə, xalq nağıllarına illüstrasiyalar geniş yer tutur: "Dağ çayı", "Aşıq Qərib", "Çövkən oyunu", "Payız bağında" və s.

**25 avqust 1931** – Yazıçı, naşir, Əməkdar mədəniyyət işçisi Əjdər Rza oğlu Xanbabayev (1931 – 30.5.1990) anadan olub. "Azərnəşr"in direktoru olub.

**25 avqust 1935** – Xalq şairi Fikrət Qoca (Fikrət Göyüş oğlu Qocayev; 1935 – 5.5.2021) Ağdaş rayonunun Kotanarx kəndində doğulub. "Təkərlər geri fırlanır", "Yaralı çiçəklər", "Oddan keçənlər" və s. poemaların müəllifidir. Şeirlərinə populyar mahnılar ("Gəl, ey səhər", "Payız gəldi" və s.) bəstələnib.

**25 avqust 1942** – Şair, publisist Davud Məcid oğlu Nəsib Qazax rayonunda (1942 – 26.3.2003) anadan olub. Kitabları: "Ürək sözsüz danışır", "Bizdən sonra yaşayanlar", "Karvan gedir" və s.

**25 avqust 1945** – Əməkdar artist, Dövlət mükafatı laureatı Vəfa Nüsrət qızı Fətullayeva (1945 – 21.5.1987) anadan olub. Akademik Dram Teatrında çalışıb. Televiziya tamaşalarında yaddaqalan obrazlar yaradıb. "Firəngiz" filmində (1975) baş rolda çəkilib.

**25 avqust 1948** – Əməkdar artist Faiq Məsim oğlu Qasımov (1948-2017) anadan olub. Gəncə Dövlət Dram Teatrında aktyor və rejissor işləyib.

**25 avqust 1965** – Əməkdar elm xadimi, filologiya üzrə elmlər doktoru, professor Hüseyn Məmməd oğlu Həşimli (1965 – 20.6.2020) Naxçıvan MR Culfa rayonunun Teyvaz kəndində doğulub.

**26 avqust 1892** – İctimai-siyasi xadim, publisist Seyid Cəfər Pişəvəri (1892 – 12.6.1947) Cənubi Azərbaycanın Xalxal mahalının Zeyvə kəndində anadan olub. 1945-1946-cı illərdə İranda azərbaycanlıların milli hərəkatına başçılıq edib, Cənubi Azərbaycan Milli Hökumətinin baş naziri olub.

**26 avqust 1921** – Azərbaycan SSR Xalq Komissarları Soveti Dövlət Konservatoriyasının təşkili haqqında dekret verib.

**26 avqust 1940** – Əməkdar artist, müğənni İdris Saleh oğlu Mehdiyev (1940 – 10.11.2015) Gəncə şəhərində doğulub. Azərbaycan Televiziyası və Radiosu Xorunun solisti və direktoru olub.

**26 avqust 2003** – Xalq artisti, tanınmış aktyor, Dövlət mükafatı laureatı Həsən Ağaməmməd oğlu Məmmədov (22.11.1938 – 2003) vəfat edib. "Gün keçdi", "Yeddi oğul istərəm", "İstintaq", "Axırıncı aşırım" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

### Dünya

**24 avqust 1899** – Argentina yazıçısı və şairi Xorxe Luis Borxes (Jorge Luis Borges; 1899-1986) anadan olub. Əsərləri: "Alef", "Yaradan", "Uydurmalar" və s.

**24 avqust 1903** – İngilis rəssamı və dizayneri Qrehem Vivian Sazerlend (Graham Vivian Sutherland; 1903-1980) anadan olub.

**25 avqust 1724** – İngilis rəssamı Corc Stabbs (George Stubbs; 1724-1806) anadan olub.

**25 avqust 1891** – İtalyan yazıçısı, rəssam və bəstəkar Alberto Savinyo (Alberto Savinio – Andrea Di Chirico; 1891-1952) anadan olub. "Niobeyanın ölümü", "Kapitan Uliss" dramlarının müəllifidir.

**25 avqust 1900** – Alman filosofu Fridrix Nitsşe (Friedrich Wilhelm Nietzsche; 15.10. 1844 - 1900) vəfat edib. Əsərləri: "Faciənin doğuluşu", "Bütlərin qürubu", "Antixrist", "Hakimiyyət iradəsi" və s.

**25 avqust 1918** – Amerika bəstəkarı və dirijoru Leonard Bernstayn (1918-1990) anadan olub.

**25 avqust 1930** – Gürcü rejissoru, SSRİ Xalq artisti Georgi Daneliya (1930 – 4.4.2019) anadan olub. Filmləri: "Mən Moskvada addımlayıram", "Afonya", "Mimino", "Payız marafonu", "Kin-dza-dza!" və s.

**25 avqust 1930** – Şotland əsilli Amerika aktyoru Şon Konneri (Thomas Sean Connery; 1930 – 31.10.2020) anadan olub. Ceyms Bond haqqında 6 filmdə baş rola çəkilib. "Toxunulmazlar" (1988) filmində roluna görə "Oskar" mükafatına layiq görülüb.

**26 avqust 1880** – İtalyan-polyak əsilli Fransa şairi Giyom Apolliner (Guillaume Apollinaire – Wilhelm Albert Vladimir Apollinaris de Waz-Kostrowitcki; 1880-1918) anadan olub. Əsərləri: "Həyatı məhəbbətə həsr etmək", "Mirabo körpüsü" və s.

**26 avqust 1913** – Rus yazıçısı Aleksandr Çakovski (1913-1994) anadan olub. "Blokada", "Qələbə" və s. romanların müəllifidir.

**26 avqust 1914** – Argentina yazıçısı və şairi Xulio Kortasar (Julio Florencio Cortazar; 1914-1984) anadan olub. Əsərləri: "Uduş", "Sonuncu raund", "Manuelin kitabı" və s.

**Hazırladı: Vüqar Orxan**

# Milli Kitabxananın "Mikayıl Abdullayev" biblioqrafiyası çapdan çıxıb

Ötən il Azərbaycan rəssamlıq məktəbinin banilərindən biri, milli incəsənətimizin dəyərli nümayəndəsi, Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Cəvahirləl Nehru adına Beynəlxalq mükafatın laureatı, Rusiya Rəssamlıq Akademiyasının üzvü, professor Mikayıl Abdullayevin (1921-2002) anadan olmasının 100 ili tamam oldu.

Yubiley münasibətilə Milli Kitabxana tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından tərtib olunmuş "Mikayıl Abdullayev" biblioqrafiyası bu günlərdə işıq üzü görüb. Bu, görkəmli rəssamın həyat və yaradıcılığı haqqında çap olunmuş ilk biblioqrafik vəsaitdir.

Rəssamın çoxşaxəli yaradıcılığını geniş oxucu kütləsinə çatdırmaq məqsədilə hazırlanmış biblioqrafiyada materiallar 1943-cü ildən 2021-ci ilədək dövrü əhatə edir. Mikayıl Abdullayevin əsərlərinin kataloqları, haqqında dövri mətbuatda və məcmuələrdə çap olunmuş məqalələr, əsərlərinin reproduksiyaları, həyat və yaradıcılığı ilə bağlı materiallar əhatə olunub. Azərbaycan və rus dillərində tərtib edilmiş bu biblioqrafiyada materiallar xronoloji ardıcıllıqla verilib, daxildə isə əlifba sırası üzrə qruplaşdırılıb.

"Mikayıl Abdullayev dünya kitabxanalarında" və "Mikayıl Abdullayev dünya universitet kitabxanalarında" bölmələri rəssamın dəyərli irsinin dünya səviyyəsində təbliğinin mənzərəsini əks etdirərək, oxucuda müəyyən fikir formalaşdırmağa kömək edir.

Vəsaitdə Mikayıl Abdullayevin həyat və yaradıcılığının əsas tarixləri, görkəmli şəxsiyyətlərin onun haqqında fikirləri də əksini tapıb.

№61 (1934)
24 avqust 2022
www.medeniyyet.az

# 5-ci ANİMAFİLM festivalı "Bir bilet = bir ağac" şüarı altında keçiriləcək

## Əldə olunacaq vəsait işğaldan azad edilmiş ərazilərdə ekoloji tarazlığın bərpasına xərclənəcək

Xəbər verdiyimiz kimi, sentyabrın 7-dən 11-dək Bakıda 5-ci ANİMAFİLM Beynəlxalq Animasiya Festivalı keçiriləcək.

"Azərbaycan Animasiya Assosiasiyası" İctimai Birliyi və "PERİ FİLM" şirkətinin təşkil etdiyi festivalın tərəfdaşları Mədəniyyət Nazirliyi, Azərbaycan Kinematoqrafçılar İttifaqı, Qarabağ Dirçəliş Fondu, Azərbaycan Yaradıcı Sənayelər Federasiyası, Nizami Kino Mərkəzi, İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi, Fransanın Azərbaycandakı Səfirliyi və Fransız İnstitutu, Çexiyanın Azərbaycandakı Səfirliyi, Yaponiyanın Azərbaycandakı Səfirliyi və Yaponiya Fondu, eləcə də bir sıra özəl studiya və şirkətlərdir.

Nizami Kino Mərkəzində təşkil olunacaq festivalın filmlərinə bilet satışı elan edilib. "İqlim dəyişikliyi" mövzusuna həsr olunan budəfəki festival "Bir bilet = bir ağac" şüarı altında keçiriləcək. Bilet satışından əldə olunacaq vəsait işğaldan azad edilmiş ərazilərdə ekoloji tarazlığın bərpası üçün Qarabağ Dirçəliş Fonduna ianə ediləcək.

Festival tamaşaçılara üç əsas proqram təqdim edəcək: müsabiqə proqramı, müsabiqədənkənar proqram və peşəkarlar üçün proqram. Animasiya filmlərinin nümayişi ilə yanaşı, yerli və xarici peşəkarların iştirakı ilə vörkşoplar və ustad dərsləri də təşkil olunacaq.




Festivala 50 ölkədən 230 film təqdim olunub. Seçim komissiyası müsabiqə proqramına 29 ölkədən 76 film qəbul edib. Müsabiqə iştirakçıları 1 yerli və 6 beynəlxalq kateqoriyalar üzrə mükafatlar uğrunda yarışacaqlar. Seçilmiş filmləri beynəlxalq jüri və azərbaycanlı uşaqlardan ibarət münsiflər heyəti izləyəcək. Beynəlxalq münsiflər heyətinə 6 əcnəbi peşəkar daxildir: Jonathan Laskar (İsveçrə), Jorn Leeuwerink (Niderland), Tilly Wallace), Markus Ovre, Daniel Bird (hər üçü Böyük Britaniya), Nodar Beqiaşvili (Gürcüstan).

Bundan əlavə, bu il "Tamaşaçı seçimi" müsabiqəsinin qalibi film nümayişləri zamanı tamaşaçı səsverməsinin nəticələri əsasında müəyyənləşəcək, qalibə "Lenovo"nun mükafatı təqdim olunacaq. Festivalın digər nominasiyalarında mükafatlar "TVPaint Développement" ("Ən yaxşı tələbə animasiya filmi"), Fransanın Azərbaycandakı Səfirliyi və Fransız İnstitutu ("Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi") və "Shahmaran Metaceramica" tərəfindən təqdim olunacaq.

Müsabiqədənkənar proqramda iqlim dəyişikliyi ilə bağlı filmlər, uşaqlar üçün "Ana təbiət" proqramı, Çexiyanın "Hətta siçanlar da cənnətə aiddir" tammetrajlı filmi, Ukrayna animasiyası, virtual sərgi və Bakı Beynəlxalq Qısa Filmlər Festivalının qalib filmləri təqdim olunacaq. Azərbaycanla Yaponiya arasında diplomatik əlaqələrin 30 illiyi münasibətilə "Hava övladı" adlı tammetrajlı animasiya filmi nümayiş etdiriləcək.

Peşəkarlar üçün proqramda hazırda üzərində iş gedən Azərbaycan animasiya filmləri təqdim olunacaq. Bundan əlavə, beynəlxalq münsiflər heyəti ilə görüşlər, rejissor Jonathan Laskarın (İsveçrə) ustad dərsi, Nitya Ramlogan (ABŞ), Tilly Wallace (İngiltərə) və Nəzrin Ağamalıyevanın (Azərbaycan) iştirakı ilə "Stop motion" və "Şüşə üzərində animasiya" vörkşopları da nəzərdə tutulub.

Festival çərçivəsində animasiya restavrasiyasına dair "Animasiyanın refreyminqi: rəqəmsal texnologiyalar əsrində hərəkətli təsvirin qorunması və bərpası" adlı konfrans da keçiriləcək.

# Bişkekdə Maqomayevə "Sənə minnətdaram" deyəcəklər



Dünya şöhrətli azərbaycanlı, SSRİ Xalq artisti, milyonların sevimlisi Müslüm Maqomayevin postsovet məkanında 80 illik yubiley tədbirləri davam edir.

Sentyabrın 10-da Qırğızıstanın paytaxtı Bişkekdə Humanitar və Mədəni Təşəbbüslər Fondunun təşkil etdiyi "Sənə minnətdaram" adlı konsert keçiriləcək. Konsertdə "məxməri bariton" adlandırılan İqor Voronsov Müslüm Maqomayevin repertuarından ən məşhur mahnıları ifa edəcək. Vokalçını Qırğızıstanın Xalq artisti Bakıt Tilegenovun rəhbərlik etdiyi Bişkek Bələdiyyəsi Simfonik Orkestri müşayiət edəcək.

Təşkilatçıların səs və repertuar imkanlarını yüksək qiymətləndirdiyi İqor Voronsov "Orta Asiya Romasiadası" müsabiqəsinin bədii rəhbəri, Qırğızıstandakı Rusiya Elm və Mədəniyyət Mərkəzinin mədəniyyət layihələrinin kuratorudur.

**Gülcahan**

# "Rəqs ritmi"

## İrlandiya milli rəqs şousu Bakıda təqdim ediləcək




Noyabrın 2-də Heydər Əliyev Sarayında dövrümüzün ən yaxşı İrlandiya rəqs şousu sayılan "Rhythm of the Dance" ("Rəqs ritmi") təqdim ediləcək.

Tamaşaçıları orijinal Kelt melodiyalarından ibarət sehrli kokteyl, məşhur İrlandiya stepi, canlı musiqi və solistlərin valehedici ifaları gözləyir.

İnanılmaz hərəkət enerjisi, incəlik və sinxronluq, xalq elementlərinin metropolun müasir ritmləri ilə birləşməsi – bütün bunlar "Rhythm of the Dance" şousunu dünyada ən populyar şoulardan birinə çevirib.

"Rhythm of the Dance" irland rəqslərində dünya lideridir, öz ənənələrinin saflığını qorumağa çalışır, eyni zamanda rəqsi ən müasir formada təqdim edir. "Rhythm of the Dance" öz miqyası və ifa texnikası ilə tamaşaçıları heyran qoyan musiqi, teatr, improvizasiya, müasir xüsusi effektlər və heyrətamiz səhnə işıqlandırmasının sintezidir.

# İpək Yolu rallisi türk respublikalarının müstəqilliyinin 30 illiyinə həsr olunub

Avqustun 21-də Macarıstanın paytaxtı Budapeştdə Gül Baba türbəsində keçirilən mərasimlə "Dunaydan Orxona İpək Yolu rallisi" avtomobil yürüşünə start verilib. Postsovet məkanında türk respublikalarının müstəqilliyinin 30 illiyinə həsr olunan və təxminən 9100 kilometrlik marşrutu əhatə edən İpək Yolu rallisinə 5 ölkədən 15 avtomobil qatılıb.

Layihə Türkiyə Xarici İşlər Nazirliyi, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Bursa Böyükşəhər Bələdiyyəsi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY, "Doğu-Batı Dostluq və Barış Rallisi Dərnəyi" və müxtəlif təşkilatların əməkdaşlığı çərçivəsində reallaşır.




Ralli Dunay çayından sonra Serbiya üzərindən Balkanlar turunu tamamlayaraq Bolqarıstana, oradan Türkiyəyə keçib.

İştirakçılar Türkiyəyə Ədirnədən daxil olublar və 23 avqustda İstanbulda start götürdükdən sonra 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" olan Bursaya çatacaqlar. Yarış iştirakçıları daha sonra Əskişəhər, Ankara, Tokat, Ordu, Trabzon, Rizə və Artvinə gedəcəklər. İpək Yolu rallisi Türkiyədən sonra Gürcüstan, Azərbaycan, Qazaxıstan və Özbəkistana keçməklə Qırğızıstanda sona çatacaq.

Mədəniyyətlərarası ünsiyyəti təmin etmək, marşrut üzərindəki ölkələrin və şəhərlərin tarixi, mədəni, təbii və turistik gözəlliklərini tanıtmaq məqsədi daşıyan İpək Yolu rallisi "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursanın da tanıdılmasına əhəmiyyətli töhfə verəcək.

Xatırladaq ki, 2021-ci ildə hazırlıqları başlanan ralli pandemiya səbəbindən bu ilə saxlanılmışdı. İlkin marşrutda avtomobil karvanının Almaniyadan start götürərək Avstriya, Macarıstan, Serbiya, Bolqarıstan, Türkiyə, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan və Qırğızıstandan keçməklə Monqolustanda yerləşən qədim türk daş kitabələri – Orxon abidələri yanında yürüşü başa vurması nəzərdə tutulmuşdu.

**Mehparə Sultanova**
**Ankara**

# Bir ayda 6,6 milyon turist

## İlin əvvəlindən Türkiyəyə xarici ölkələrdən səfər sayı 28 faiz artıb



2022-ci ilin yeddi ayı (yanvar-iyul) ərzində Türkiyəyə 23 milyon 30 mindən çox xarici turist gəlib. Bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 28 faiz çoxdur.

Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin yaydığı məlumata əsasən, əcnəbi ziyarətçilərin böyük əksəriyyəti iyul ayında ölkəyə gəlib. Bu rəqəm ötən ilin eyni dövrü ilə müqayisədə 52,8 faiz artaraq 6 milyon 665 min nəfər təşkil edib.

Türkiyəyə ən çox turist isə Almaniya, Rusiya və İngiltərədən gəlib. Yanvar-iyul ayları ərzində Almaniyadan 2 milyon 992 min, Rusiyadan 2 milyon 197 min, İngiltərədən isə 1 milyon 810 min nəfər Türkiyəyə səfər edib. Hər üç ölkədən Türkiyəyə gələnlərin sayında ötən il ilə müqayisədə əhəmiyyətli dərəcədə artım müşahidə olunur.

Bununla belə, Türkiyənin bu il də xarici turist sayında pandemiyadan öncəki rekorda çatması hələ real görünmür.

Xatırladaq ki, 2019-cu ildə qardaş ölkəyə gələn əcnəbi qonaqların sayı 2018-ci illə müqayisədə 14 faiz artaraq 45 milyon 58 min nəfər olmuşdu. O cümlədən Rusiyadan ölkəyə rekord sayda – 7 milyon 17 min (bir öncəki illə müqayisədə 17 faiz artım) turist gəlmişdi.

2020-ci ildə pandemiya səbəbindən xarici turist sayı cəmi 16 milyon nəfər olmuşdu. 2021-ci ildə bu rəqəm 30 milyona çatsa da (əvvəlki ilə nisbətən 88 faiz artım), yenə Türkiyə üçün son illərin aşağı göstəricisi idi.

Nəhayət, bu il Türkiyənin xarici turist sayı ilə heç olmasa 2018-ci ilin göstəricisini (39 milyon nəfər) üstələməsi mümkün görünür.

**V.Kamal**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 508 il əvvəl...

**23 avqust 1514-cü ildə** Səfəvi dövlətinin başçısı Şah I İsmayılın qoşunları ilə Sultan I Səlimin (Sultan Səlim Yavuz) başçılıq etdiyi Osmanlı ordusu arasında Çaldıran düzündə (Maku şəhəri yaxınlığında) döyüş baş verib. Dövrün iki qüdrətli türk dövlətinin üzə-üzə gəldiyi döyüşdə Səfəvi ordusu məğlub olub. Osmanlı ordusu Xoy və Mərəndi, hətta Səfəvi dövlətinin paytaxtı Təbrizi tutub, lakin bir həftə sonra oranı tərk edib. Çaldıran döyüşündə qələbə sayəsində Osmanlı dövləti Ərzurum daxil olmaqla Şərqi Anadolunu və Şimali Mesopotamiyanı (indiki Şimali İraq) ələ keçirib. Məğlubiyyət Səfəvilərin hərbi-siyasi nüfuzuna ağır zərbə vurub.

### 450 il əvvəl...



**24 avqust 1572-ci ildə** tarixə dəhşətli qətliamlardan biri kimi düşmüş "Varfolomey gecəsi" baş verib. Avqustun 25-nə keçən gecə (Müqəddəs Varfolomey günü ərəfəsində) Parisdə katoliklər protestant təriqətinə mənsub olan quqenotları (fransızca eyguenot – silahdaş, yoldaş) kütləvi şəkildə qətlə yetiriblər. Fransa kraliçası Katerine Mediçinin əmri ilə həyata keçirilən qırğın əslində Vatikanın planı idi. Katolik kilsəsinin rəhbərliyi xristianlıqda mütərəqqi cərəyan kimi yayılan protestantlıqla bu cür üsullarla mübarizə aparırdı. Müxtəlif tarixi qaynaqlara görə, "Varfolomey gecəsi"ndə Parisdə 3 min, ümumilikdə Fransada 30 minədək quqenot məhv edilmişdi.

### 444 il əvvəl...

**24 avqust 1578-ci ildə** Səfəvi-Osmanlı müharibələrinin ikinci mərhələsi (birinci mərhələ 1555-ci ildə Amasya sülhü ilə yekunlaşmışdı) başlanıb. Çıldır döyüşündə Səfəvi qoşunlarına qalib gələn Osmanlı qüvvələri Tiflisi ələ keçiriblər. Lakin bir qədər sonra (sentyabr) Səfəvi qoşunları Tiflisi geri alıb, Osmanlı ordusunun şimal-qərbi Azərbaycan torpaqlarına irəliləməsinin qarşısı alınıb.

### 300 il əvvəl...

**23 avqust 1722-ci ildə** Çar I Pyotrun komandanlığı altında rus qoşunları Dərbənd şəhərini işğal ediblər. Rusiyanın Azərbaycanın Xəzərsahili bölgələrinə hərbi ekspansiyası başlanıb. Bir qədər sonra Bakını (1723) ələ keçirən rus qoşunları Lənkəran-Astara, daha sonra isə Ənzəli limanınadək irəliləyib.

### 83 il əvvəl...

**23 avqust 1939-cu ildə** SSRİ ilə Almaniya arasında bir-birinə hücum etməmək haqqında saziş imzalanıb. İki ölkənin xarici işlər nazirləri Molotov və Ribbentrop tərəfindən imzalanan sazişə əlavə olaraq SSRİ ilə Almaniya arasında Şərqi Avropanın bölüşdürülməsinə dair gizli protokol da imzalanmışdı. Həmin protokola əsasən, 1939-cu il sentyabrın 1-də faşist Almaniyası Polşanı, daha sonra Çexoslovakiyanı işğal etdi. SSRİ isə Baltikyanı respublikaları özünə birləşdirdi. Molotov-Ribbentrop paktının gerçək mahiyyəti yalnız 50 il sonra rəsmən açıqlandı.

### 29 il əvvəl...

**23 avqust 1993-cü ildə** Ermənistan silahlı qüvvələri Azərbaycanın Cəbrayıl və Füzuli rayonlarının mərkəzlərini və kəndlərinin böyük hissəsini işğal edib. Həmin ilin oktyabrında hər iki rayon bütünlüklə işğal altına düşdü. 1994-cü ilin yanvarında Azərbaycan Ordusu Füzulinin Arazboyu kəndlərini və Horadiz qəsəbəsini düşməndən azad etdi . 2016-cı ilin Aprel döyüşlərində qalibiyyət sayəsində Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakinləri doğma yurda qayıtdılar. 2020-ci ilin 44 günlük Vətən müharibəsində Cəbrayıl (4 oktyabr) və Füzuli (17 oktyabr) şəhərləri, hər iki rayonun bütün kəndləri işğaldan azad edildi.

### 21 il əvvəl...



**24 avqust 2001-ci ildə** Türkiyənin ali pilotaj eskadrilyası – "Türk ulduzları" ilk dəfə Bakı səmasında nümunəvi uçuşlar keçirib. Aksiya Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi, ordu generalı Hüseyn Kıvrıqoğlunun Azərbaycana səfəri gedişində reallaşıb. Səfər zamanı iki ölkə arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub.

### 20 il əvvəl...

**24 avqust 2002-ci ildə** Azərbaycanda Konstitusiyaya əlavə və dəyişikliklər edilməsi ilə bağlı referendum keçirilib. Referendum aktında Konstitusiyanın 24 maddəsi üzrə 39 dəyişiklik (o cümlədən zərurət yarandığı halda Prezident səlahiyyətlərinin Milli Məclisin sədrinə deyil, Baş nazirə keçməsi) təklif olunmuşdu. Rəsmi nəticələrə əsasən, dəyişikliklər paketinin lehinə (ayrı-ayrı bloklar üzrə) 96-97 faiz səs verilmişdi.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2401
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641